Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16-18
FEVRAL
2019-cu il
№ 32 (3930)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# «ƏRAZİ MÜQABİLİNDƏ STATUS YOX, ƏRAZİ MÜQABİLİNDƏ ERMƏNİSTANIN İQTİSADİ NİCATI...»

■ səh. 9 ■

*Azərbaycan diplomatiyası münaqişənin həll prosesinin faktiki məntiqini dəyişdi...*

**Azərbaycanın KTMT gedişləri Ermənistanda yeni ajiotaj yaradır...**

■ səh. 4 ■

**İkistandartlı siyasət aparan dünya susur, Paşinyan isə siyasi həbsləri kütləviləşdirir...**

■ səh. 5 ■

**"Reket jurnalistin" "Bakı-Xəbər"in müxbirinə atdığı böhtan məhkəmədə araşdırılır - Mətbuat Şurasından əməkdaşımızın haqq mövqeyinə dəstək gəldi...**

■ səh. 4 ■

**Qondarma "DQR"də Paşinyançı qüvvələrin hakimiyyətə gəlişi və Qarabağ həll prosesinin sonrakı gedişi...**

■ səh. 5 ■

**Tələbələr də dövlətin sosial dəstək siyasətindən kənarda qalmadı...**

■ səh. 7 ■

**Minimum pensiya həddinin artırılması minlərlə insanın həyatında özünü göstərəcək**

■ səh. 10 ■

**Azərbaycanda vergi ombudsmanı...(?)**

■ səh. 7 ■



## Erməni kilsə xadimlərinin dəhşətli korrupsiya faktları dünya mediasına yayıldı...

■ səh. 8 ■

*Qareginin illər öncə bir fəhləyə dediyi sözlər güllə kimi özünə dəyir...*



**Ceyhun Bayramov Azərbaycanın təhsil sistemində daha bir əhəmiyyətli yeniliyin anonsunu verdi...**

■ səh. 6 ■

**Azərbaycan turizminin sürətli inkişafına qarşı «donuz qripi» təxribatı...**

■ səh. 15 ■




**Dillər Universitetindən sabiq dekanın ağır ittihamları belə cavablandırıldı - «gəlin, görün dərslər necə keçir»...**

■ səh. 11 ■

■ səh. 3 ■

**Əli Həsənov adi kriminal hadisəni çeçen-Azərbaycan xalqlararası məsələyə çevirmək istəyənləri ifşa etdi**



■ səh. 3 ■

**"Tələbə təqaüdlərinin artırılması təkcə sosial hadisə deyil..."**



■ səh. 6 ■

**Havar Məmmədov BMU-da şəffaf təhsil prosesini sonadək qoruyacağına söz verdi**



■ səh. 8 ■

**KTMT baş katibi məsələsində Paşinyanın avantürası nota ilə nəticələndi...**



■ səh. 10 ■

**Banklar Elman Rüstəmovun dərəcə azaltmaq kursundan nəticə çıxarmadı, "tərslik" nə vaxtadək davam edəcək...**



## Avropa İttifaqının komissarı Azərbaycanla saziş barədə əhəmiyyətli müzakirə aparıb

*Xarici işlər naziri Elmar Məmmədyarov Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Avropa İttifaqının komissarı ilə görüşdü*

**Münhen Təhlükəsizlik Konfransı çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Avropa İttifaqının komissarı Yohannes Han ilə görüşüb. Görüşdə, həmçinin, energetika naziri Pərviz Şahbazov da iştirak edib. Tərəflər Azərbaycan və Avropa İttifaqı arasındakı müxtəlif sahələrdə mövcud olan əməkdaşlıq məsələlərini müzakirə ediblər.**



Daha sonra tərəflər Azərbaycan və Avropa İttifaqı arasında mövcud olan strateji tərəfdaşlığın hüquqi əsasını təşkil edəcək yeni saziş layihəsi üzrə aparılan danışıqlara toxunublar. Bu xüsusda, sözügedən saziş üzrə danışıqların yekunlaşmasının əhəmiyyəti qeyd edilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqların cari vəziyyəti haqqında Aİ komissarına məlumat verən nazir Elmar Məmmədyarov münaqişənin həllinin regionda inkişaf üçün müvafiq şərait yaradacağını və rifah naminə sülhü təmin edəcəyini vurğulayıb. Həmçinin, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində qarşılıqlı faydalı və təhlükəsizlik məsələləri müzakirə edilib. Energetika naziri Pərviz Şahbazov Aİ komissarı Y.Han ilə enerji sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri ətrafında faydalı fikir mübadiləsi aparıb.

## Çin və ABŞ arasında ticarət mübahisəsinin həlli ilə bağlı növbəti görüş də nəticəsiz bitdi

**Çin və Amerika Birləşmiş Ştatlarının nümayəndələri arasında ticarət məsələlərinə dair ikigünlük məsləhətləşmələrin növbəti raundu yekunlaşıb.**

"Trend"in məlumatına görə, məsləhətləşmələr Pekində fevralın 14-15-də keçirilib. Məlumata görə, görüşdə iki ölkə arasında ticarət məsələlər ilə bağlı fikir ayrılıqları müzakirə olunub. İki ölkə arasında ticarət mübahisəsinin həlli üçün müəyyən edilmiş müddətin uzadılması gözlənilir. Qeyd edək ki, bu müddət martın 1-də bitməli idi.

# Sabirabad və Salyanda qış otlaqlarında meliorasiya işləri üçün 30 milyon, Tovuzda yol tikintisinə 3,3 milyon manat ayrıldı...

**Prezident İlham Əliyev Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorasiya işləri ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Son illərdə respublikada pambıqçılığın, taxılçılığın, digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının genişləndirilməsi məqsədilə müasir tələblərə cavab verən su anbarlarının, nasos stansiyalarının, suvarma kanallarının və digər su təsərrüfatı obyektlərinin tikilməsi on minlərlə hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsinə, aqrar sektorun inkişafına, ən mütərəqqi standartlar səviyyəsində aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin fəaliyyətə başlamasına zəmin yaratmışdır. Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına tam ödənilməsinə, ölkənin ərzaq təminatında xarici bazardan asılılığın azaldılmasına, ixracyönümlü məhsulların istehsal həcminin artırılmasına və bununla da regionların davamlı inkişafına nail olunmuşdur.



Görülən işlərin davamı olaraq, Sabirabad və Salyan rayonlarındakı qış otlaqlarında meliorativ tədbirlər layihəsi çərçivəsində son iki il ərzində az məhsuldar qış otlaqlarında aparılmış meliorasiya işləri nəticəsində 15950 hektar, o cümlədən Sabirabad rayonunda 14319 hektar və Biləsuvar rayonunda 1631 hektar əraziyə suvarma suyu çatdırılmışdır.

Sərəncamda qeyd edilir ki, Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.27-ci yarımbəndində göstərilmiş məbləğin 30 milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Prezident İlham Əliyev Tovuz rayonunun Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqındada sərəncam imzalayıb.

**Sərəncamda qeyd edilir ki, əlli min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,3 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.**

# Mətbuat Şurasında Qətərdən və Livandan olan jurnalistlərlə görüş keçirildi

**Azərbaycan Mətbuat Şurasında Qətərdən və Livandan olan bir qrup jurnalistlə görüş keçirilib.**



MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov görüşün əvvəlində qonaqlara rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. MŞ sədri bildirib ki, Şura beynəlxalq media qurumları ilə əməkdaşlıq məsələlərinə Azərbaycan həqiqətlərinin xaricdə təbliği vasitəsi kimi önəm verir. Bu baxımdan ərəb ölkələrinin, ümumilikdə müsəlman dünyasının media qurumları ilə münasibətlərin saxlanılması olduqca önəmlidir.

MŞ sədrinin müavinləri - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlunun, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin, İH üzvləri - "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunun iştirak etdiyi görüşdə Azərbaycan mediası ilə dünya mediası arasındakı əməkdaşlığın formaları, Azərbaycan həqiqətlərinin xaricdə təbliği məsələləri, həmçinin söz və ifadə azadlığı müstəvisində nəzərə çarpan meyllər ətrafında geniş müzakirələr aparılıb.

Qeyd edək ki, ərəb ölkələrindən olan bir qrup jurnalist - Joseph Varghese ("Culf Times" qəzetinin repartyoru, Qətər), Smail Tellai, ("Al-Arab" qəzetinin perartyoru, Qətər), Mamdouh Fathy Abdelazim Raswan ("Al-Raya" qəzetinin şöbə müdiri, Qətər), Mohamed Mahmoud Sidi Mohamed ("Peninsula" qəzetinin reportyoru Qətər), Shawgi Mahadi Mustafa Bakhit ("Lusail" qəzetinin müxbiri, Qətər), Ahmed İbrahim A H Al-Mohannadi ("Al Sharq" qəzetinin müxbiri Qətər), Walden Susannah Mitchell ("Media Daily Star" qəzeti, Livan), Soulagr Georges ("Cumhuriyyə" qəzeti, Livan), El Zbaidi Michel ("Cadernews" saytı, Livan) fevralın 10-dan 16-dək ölkəmizdə səfərdədir. Onlar Mətbuat Şurası ilə yanaşı, bir sıra KİV-də görüşlər keçirib, həmçinin ölkəmizin tarixi yerləri ilə tanış olublar.

*Xəbər xidməti*

**Aydın Quliyev Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənova qaynı Dilavər Məmmədovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.
1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**
**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**
**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Əli Həsənov adi kriminal hadisəni çeçen-Azərbaycan xalqlararası məsələyə çevirmək istəyənləri ifşa etdi

*"Məişət zəminində yaşanan hər hansı insident Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz"*

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov fevralın 15-də Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasında baş vermiş insidentlə bağlı AZƏRTAC-a açıqlama verib.**

Əli Həsənov bildirib ki, Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz. Prezidentin köməkçisi deyib: "Azərbaycan və çeçen xalqları arasında əlaqələr tarixin sınağından çıxmışdır və nümunəvi xarakter daşıyır. Prezident İlham Əliyevlə Çeçenistan Prezidenti Ramzan Kadırov arasında mövcud olan şəxsi dostluq münasibətləri, ötən ilin sonlarında keçirdikləri görüşdə səslənən fikirlər buna əyani sübutdur. Ümumiyyətlə, azərbaycanlılar bütün Qafqaz xalqları ilə əsrlər ərzində formalaşmış ortaq tarixini, dəyərlərini yüksək qiymətləndirir və həmişə qorumağa çalışır".



Azərbaycanla Rusiya arasında gündən-günə inkişaf edən əməkdaşlıq əlaqələrinin həm də ölkəmizin Şimali Qafqaz respublikaları, o cümlədən Çeçenistanla əməkdaşlığının möhkəmlənməsində önəmli rol oynadığını vurğulayan Əli Həsənov deyib: "Rusiya çoxmillətli dövlətdir, burada yaşayan xalqlar öz dillərini, mədəniyyətlərini qoruyub inkişaf etdirirlər. Rusiyada yaşayan azərbaycanlılar da digər xalqlar kimi həmişə öz milli mədəni hüquqlarından tam istifadə edə bilirlər. Biz soydaşlarımızı, qardaş çeçen və Rusiyada yaşayan digər xalqların nümayəndələrini bu ölkədəki multikultural mühitdən, yaradılmış şəraitdən xoş məramlar, xalqlararası dostluğun inkişafına töhfə verəcək məqsədlər üçün istifadə etməyə, belə xoşagəlməz insidentlərə yol verməməyə dəvət edirik. Əminliklə bildiririk ki, Moskvada yaşanmış insidentdən sui-istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələr böyük yanlışlığa yol verirlər və öz çirkin niyyətlərinə çatmayacaqlar".

**"Dövlət başçısının tələbə təqaüdlərini nəzərəçarpan dərəcədə artırması Azərbaycanda sosial sferanın tam nəzarət altında olduğunu və bu sahədə aparılan siyasətin azacıq da olsa boş yerinin qalmadığını göstərdi". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

# "Tələbə təqaüdlərinin artırılması təkcə sosial hadisə deyil..."

***Aydın Quliyev:** "Prezidentin qərarı tək sosial addım deyil, dövlətçilik siyasətinin zəruri tərkib hissəsidir"*



Aztəminatlı təbəqənin qayğısına qalmağın Azərbaycanda sosial siyasətin mühüm istiqamətlərindən biri olduğunu deyən baş redaktor qeyd edib ki, sosial müdafiə və sosial təminat siyasəti ölkəmizdə ardıcıl, fasiləsiz və ünvanlı aparılması ilə xarakterikdir.

Onun sözlərinə görə, son aylarda bu istiqamətdə Prezidentin həyata keçirdiyi bir sıra tədbirlər və qərarlar aztəminatlıların həyatını yaxşılaşdırmaqla bərabər, dövlətimizin iqtisadi gücünün daha böyük sürətlə artdığını təsdiqləyir:

"Minimum əmək haqqı, minimum pensiya, yaşayış minimumu artırılır, əlil və şəhid ailələrinin mənzillə təminatı mütəmadi yaxşılaşdırılır, müavinətlər artırılır. Mühüm məqamlardan biri odur ki, bütün bunlar hər hansı beynəlxalq təşkilatın, daxildə hansısa mənbənin tövsiyəsi, marağı və ya tələbi ilə deyil, şəxsən Prezidentin özünün təhlilləri, informasiyaları və şəxsi iradəsi ilə baş verir. Bütün bunlar ölkədəki sosial dəstək və sosial müdafiə tədbirlərinin aparılan siyasətin xarakterindən irəli gəldiyini göstərir".

**A.Quliyev deyib ki, bu günlərdə bütün kateqoriyalardan olan tələbələrin təqaüdlərinin artırılmasına da bu mülahizələr əsasında baxmaq lazımdır:** "Söhbət on minlərlə insanın təmsil etdiyi təbəqənin təqaüdünü artırmaqdan gedir və bu kiçik vəsait deyil. Tələbə təqaüdlərinin artırılmasına həm də dövlət başçısının özünün gənclər siyasətində elan etdiyi prinsiplərə ardıcıl və sadiq yanaşmasının göstəricisidir. Prezidentin tələbələrə hərtərəfli dəstəyi onun gənclər siyasətinin tərkib hissəsi və pozitiv davamıdır".

Ekspert qeyd edib ki, tələbələrin böyük çoxluğunun təqaüdə ehtiyacı olduğunu nəzərə alsaq, Prezidentin qərarının humanitar mahiyyət daşıdığını da görmək olar: "Başqa bir cəhət bazar iqtisadiyyatının ölkəmizdə sürətlə böyüdüyü şəraitdə tələbələr kimi gəliri olmayan təbəqənin ehtiyaclarının dövlət tərəfindən qarşılanmasını daimi prosesə çevirməkdir. Etiraf edək ki, bizdə bu artıq təmin edilib. Hər bir tələbə bilir ki, bazar tələbatları böyüdükcə onu bu ağır yükdən qoruyan qüvvə var və olacaq. Bu amilə dayanaraq, Prezidentin qərarını ölkədə həm də sosial ədalətin qorunmasına yönəldilmiş fealiyyət kimi dəyərləndirmək olar".

A.Quliyev əlavə edib ki, ümumən gənclərin, xüsusilə də tələbələrin iqtisadi inkişafa uyğun olaraq fasiləsiz dövlət dəstəyi altına alınması dövlətimizin dayandığı sosial bazanı daha da bərkidir, gənclərin dövlətçilik şüurunun formalaşmasında böyük rol oynayır: "Bu mənada, Prezidentin qərarı tək sosial addım deyil, eyni vaxtda humanitar, sosial ədaləti qoruyan, dövlətimizin sosial bazasını möhkəmləndirən və gəncləri dövlətçiliyimizə daha çox bağlayan çox təsirli addımdır, dövlətçilik siyasətinin zəruri tərkib hissəsidir".

## Bərdədə məcburi köçkünlərə ödənişsiz tibbi müayinə təşkil edildi...

**Qaçqınların... Dövlət Komitəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, məcburi köçkünlərin birbaşa yaşayış yerlərində hərtərəfli tibbi müayinəyə cəlb olunması üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü, Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə fevralın 15-də Bərdə rayonunda tibbi aksiya keçirilib.**

Akademik M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının yüksək ixtisaslı həkimləri Bərdə Müalicə Diaqnostika Mərkəzində məcburi köçkünləri müayinə edib, onların sağlamlıq vəziyyətini yoxlayıblar. Həkim briqadasının tərkibində cərrah, nevropatoloq, pediatr, oftalmoloq, nefroloq, kardioloq, travmatoloq və digər ixtisaslar üzrə ali dərəcəli 20-yə yaxın həkim olub. Müayinələr ödənişsiz əsaslarla aparılıb. Pasiyentlərə zəruri həkim məsləhəti verilib, diaqnoz qoyulub. Onlardan bəzilərinə daha dərin müayinə və ixtisaslı müalicə üçün Bakıya göndəriş verilib.

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin maddi rifahının yaxşılaşdırılması, sosial problemlərinin həlli, o cümlədən yüksək keyfiyyətli səhiyyə xidmətləri ilə təmin edilməsi üçün davamlı və təsirli tədbirlər görülür.

Qaçqınların və məcburi köçkünlərin sağlamlığının qorunmasına da hərtərəfli dövlət qayğısı göstərilir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu kateqoriyadan olan vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması ilə yanaşı, müntəzəm olaraq zəruri tibbi yardım almasına xüsusi həssaslıqla yanaşır. Məcburi köçkünlər üçün salınmış qəsəbələrdə müasir tələblərə cavab verən tibb məntəqələri fəaliyyət göstərir.

Məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı digər şəhər və rayonlarda da bu cür tibbi aksiyalar keçirilməsi nəzərdə tutulub.

***Baki-xeber.com***

## Taleh Bağırovun həyat yoldaşının həbsxanadan çıxardığı xəbərlər təsdiqlənmədi

**Ədliyyə Nazirliyi Yanında Penitensiar Xidmət Nardaran hadisələrində təqsirləndirilərək həbs olunan Taleh Bağırovun həyat yoldaşının verdiyi açıqlamaya münasibət bildirib.**

Penitensiar Xidmətdən "Trend"ə verilən məlumatda bildirilir ki, Taleh Bağırovun həyat yoldaşı Leyla İsmayılzadə bəzi informasiya saytlarında müsahibə verərək həbsxanada cəza çəkən T.Bağırova qarşı müəssisə əməkdaşları tərəfindən təzyiqlər olması, vəkili ilə görüşə bilməməsi, telefon danışıqlarına icazə verilməməsi və bu səbəbdən onun uzun müddətdir ki, aclıq etməsi barədə həqiqətə uyğun olmayan fikirlər səsləndirib.

Penitensiar xidmət bildirir ki, həbsxana rəisi Aftandil Ağayev tərəfindən 12 fevral 2019-cu il tarixdə T.Bağırovun atası Kamil Bağırov və həyat yoldaşı Leyla İsmayılzadə qəbul edilib. Qəbul zamanı onlarla hərtərəfli izahedici söhbətlər aparılıb, narahatçılığa heç bir əsas olmadığı diqqətə çatdırılıb və qeyd olunub ki, T.Bağırova qarşı heç bir hüquqazidd hərəkətlərə yol verilməyib, vəkili və qohumları ilə görüşə, habelə telefon danışıqlarına lazımi şərait yaradılıb. Lakin T.Bağırov vəkil Bəhruz Bayramovla görüşdən, eləcə də nəzərdə tutulmuş müddətlərdə təqdim edilən telefon danışıqlarından imtina edib. Bütün bu halların hər biri müvafiq qaydada sənədləşdirilib. Hətta qohumlarının narahatlığını anlayaraq həbsxana rəisi T.Bağırova xidməti otağında qohumları ilə görüşməsi üçün şərait yaradıb. Otağa daxil olarkən T.Bağırov "Siz bura niyə gəlmisiniz, durun gedin" ifadəsini işlədərək kobud tərzdə narazı olduğunu göstərib, çılğınlıq edib. Müəssisə rəisi onu intizama dəvət edərək vəkilləri və qohumları ilə görüşə, telefon danışıqlarına şərait yaradıldığını və hansı səbəbdən bu hüquqlarından imtina etdiyini soruşduqda, "Mən gündəmdə qalmaq istəyirəm, bu mənim bir şansımdır" deyə T.Bağırov cavab verib, üzünü qohumlarına tutaraq "Gedin hər kəsə bildirin ki, mən aclıq edirəm" deyib.

Penitensiar xidmət bir daha bildirir ki, T.Bağırov ona qarşı hər hansı qanunazidd hərəkətlərə yol verilməsi, eləcə də aclıq etməsi barədə ərizə ilə müraciət etməyib, təhlükəsizliyi təmin olunmaqla bütün hüquqları qorunur.

**Məlumdur ki, Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) daxil olması və ya təşkilatda müşahidəçi statusu alması məsələsi hələ qarşıya qoyulmayıb. Amma perspektivdə bu xüsusda müəyyən addımların atılması da istisnalıq təşkil etmir. Məhz bu vəziyyət hələ də Ermənistanda böyük narahatlığa yol açıb. Xüsusən də o fonda ki, Ermənistanın təşkilatda mövqeləri kifayət qədər zəifləyib.**

# Azərbaycanın KTMT gedişləri Ermənistanda yeni ajiotaj yaradır...

Xatırladaq ki, Ermənistanda 2008-ci ilin mart hadisələri ilə əlaqədar açılan cinayət işi çərçivəsində ittiham olunan Yuri Xaçaturov İrəvanın təşəbbüsü ilə, müəyyən olunmuş prosedura əsasən, vaxtından əvvəl KTMT-nin baş katibi vəzifəsindən geri çağırılıb. Elə bu da, Rusiya daxil olmaqla, təşkilatın digər üzvləri tərəfindən böyük narazılıqla qarşılanıb. Hazırda KTMT-nin baş katibi postuna ən real namizəd Belarus Dövlət Təhlükəsizlik Şurasının katibi Stanislav Zasdır. Ermənistan istisna olmaqla, bütün digər üzvlər bu şəxsin namizədliyini təsdiq ediblər.

Məsələyə yenidən münasibət bildirən Ermənistanın baş naziri Nikol Paşinyan Belarusun Ermənistanla özünün sələflərinin dövründə olduğu kimi davrana bilməyəcəyini söyləyib və KTMT-nin baş katibi postunda yenə erməni zabitinin olmasını istədiklərini vurğulayıb. Belarus Xarici İşlər Nazirliyinin mətbuat katibi Anatoli Qlaz məsələyə sərt reaksiya verib. O bildirib ki, baş katibin yoxluğu zamanı KTMT-də işlər xeyirə doğru getmir: "KTMT artıq uzun müddətdir baş katibsiz çalışır. Situasiya təşkilatın xeyrinə doğru getmir və qısa zaman ərzində həll tələb edir". Qlaz KTMT baş katibi vəzifəsinin hər zaman rezerv edilən mehmanxana nömrəsi olmadığını deyib. Mətbuat katibi texniki çatışmazlığın KTMT-nin işinə təsir etməməsində bütün üzv dövlərin maraqlı olduğuna Minskin ümid etdiyini bildirib.

İndilikdə real vəziyyət göstərir ki, İrəvanın istəyinə baxmayaraq, KTMT dövlət rəhbərlərinin növbəti toplantısında quruma Belarus namizədi rəhbərlik edəcək. Belə vəziyyətdə təşkilatın Azərbaycan və Ermənistana münasibətində daha kəskin dəyişikliklər ola biləcəyi İrəvanı daha çox narahat edir. Xüsusən də Rusiya Prezidenti Vladimir Putinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında tərəfdaş təsisatının yaradılmasını nəzərdə tutan protokolun imzalanması barədə hökumətin təklifini təsdiq edən sərəncam imzalaması Ermənistanda böyük təşviş yaradıb. KTMT tərəfdaşı bu təşkilatla qarşılıqlı maraq kəsb edən sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq ələqələri quracaq dövlət və təşkilatlardır. Müşahidəçilərdən fərqli olaraq, tərəfdaşlar həmçinin KTMT-nin tədbirlərində də iştirak etmək öhdəliyi qəbul edirlər.



Erməni mediası yazır ki, hazırda üzv dövlətlər əsas potensial tərəfdaş qismində Azərbaycanı görürlər. Bu isə Ermənistanı daha çox qorxuya salır. Bütün bunlara qarşı İrəvan müəyyən cəhdlər edir və erməni mediası İrəvan tərəfindən Suriyaya hərbi heyətin göndərilməsini elə bu fonda izah edir. Geniş müzakirə edilən bu məsələ ətrafında müdafiə naziri David Tonoyan daha da irəli gedərək bildirib ki, erməni taboru humanitar yardım üçün Suriyada olsa da, müəyyən vəziyyətdə hərbi əməliyyatlarda da iştirak edə bilər. Erməni KİV-lərinin məlumatına görə, Ermənistanın baş naziri Nikol Paşinyan bu yolla Rusiyanın rəğbətini qazanmağa və Moskvanın Azərbaycanı KTMT-də görmək istəyinin qarşısını almağa çalışır. Qeyd olunur ki, Paşinyan baş nazir seçildikdən sonra Rusiya Prezidenti Vladimir Putin Moskvada onun qarşısında seçim qoyub. Putin Azərbaycanı KTMT-də görməyə qarşı olmadığını bildirib. Eyni zamanda, alternativ variant olaraq Ermənistanın Suriyada müəyyən fəaliyyətlərin icra olunmasında iştirakı şərtini irəli sürüb. Paşinyan bununla razılaşsa da, Putin Azərbaycanı qurumda görmək niyyətindən vaz keçməyib. Erməni politoloq Ayk Babuxanyan bunu təbii sayır. Onun sözlərinə görə, Paşinyan hakimiyyətə gələn kimi KTMT-nin nüfuzuna, həmçinin, Rusiya ilə iqtisadi əlaqələrə zərbə endirib: "Rusiyanın Ermənistandakı iqtisadi strukturlarına zərbə və bunların ələ keçirilməsi, daha sonra isə baş nazirin bəyanatlarının planlaşdırılmış aksiya olması aydındır. Əgər bu belə deyilsə, o zaman Ermənistanda situasiya pisdir. Yəni ölkədə hakimiyyət yoxdur, əvəzində xaos var.

Misallar çoxdur. Rusiyanın Gümrüdəki hərbi bazası ilə bağlı situasiya, rus qoşunlarının Ermənistandan çıxarılması tələbləri və sairə. Bunların hamısı göstərir ki, Ermənistanda iqtidarı ələ keçirənlər hakimiyyətin strukturunun necə olması və hansı hökumətin onlara lazım olmasını müəyyən etmək gücündə deyillər". KTMT-nin yeni baş katibi postuna kimin təyin olunmasından asılı olmayaraq, Paşinyanla bağlı Moskvada uyğunsuz tərəfdaş, hər şeyin gözlənilməsinin mümkün olduğu obrazı yaranıb. Məhz bu səbəbdən Rusiya daha çox güvənməyə başladığı Azərbaycanla əlaqələrini daha da dərinləşdirməkdə maraqlıdır.

***Nahid SALAYEV***

---

**Dünən Göygöl Rayon Məhkəməsində "Bakı-Xəbər" qəzetinin əməkdaşı Məhəmmədəli Qəriblinin şərəf və ləyaqətinin müdafiəsi ilə bağlı demokratik.az adlı domen istifadəçisi Rzayev Osman Nəriman oğluna qarşı qaldırdığı iddia ərizəsi ilə bağlı məhkəmə prosesi keçirilib. Bildirək ki, Osman Nərimanoğlu və onun rəhbərlik etdiyi saytın adı Mətbuat Şurası İdarə Heyətinin qərarı ilə "reket" KİV elan edilib.**

# "Reket jurnalistin" "Bakı-Xəbər"in müxbirinə atdığı böhtan məhkəmədə araşdırılır - Mətbuat Şurasından əməkdaşımızın haqq mövqeyinə dəstək gəldi...




*"Mətbuat Şurası bu məsələ ilə bağlı konkret qərar qəbul etsə də, Osman Nərimanoğlu bu qərardan nəticə çıxarmaq əvəzinə, tamamilə başqa mövqe tutdu"*

Məhəmmədəli Qəribli bildirdi ki, iddiasını müdafiə edib və cavabdehlə bağlı irəli sürdüyü tələblərə hüquqi qiymət verilməsini istəyib. Cavabdeh müxtəlif bəhanələrlə prosesi uzatmağa cəhd etsə də, bu mümkün olmayıb. Növbəti məhkəmə baxışı fevralın 26-na təyin edilib.

**Azərbaycan Mətbuat Şurasının təmsilçisi Müşfiq Ələsgərli bildirdi ki, O.Nərimanoğlu həqiqətən də M.Qəriblinin şərəf və ləyaqətini təhqir edən yazılarla çıxış edib.**

## ***Müşfiq Ələsgərli:*** *"Hesab edirəm ki, məhkəmə Məhəmmədəli Qəriblinin verdiyi şikayətlə əlaqədar olaraq ədalətli qərar çıxaracaq"*

Məsələyə Mətbuat Şurasında baxıldığını və qərar qəbul edildiyini deyən M.Ələsgərlinin sözlərinə görə, O.Nərimanoğlu şuranın çıxardığı qərara əhəmiyyət verməyərək həm M.Qəribliyə, həm də Mətbuat Şurasına qarşı şər-böhtan dolu yazılar yazmaqda davam edib. "Mətbuat Şurasında M.Qəriblinin müraciətinə baxılıb və araşdırmalardan sonra məlum olub ki, Məhəmmədəli bəy haqlıdır. Doğrudan da Osman Nərimanoğlu tərəfindən ona qarşı birtərəfli, balans prinsipi pozulmaqla təhqir-böhtan dolu yazılar yazılıb. Bizim xəbərdarlığımıza baxmayaraq, O.Nərimanoğlu bu məsələyə son qoymadı. Əslində isə, öz səhvini anlayıb buna son qoymalı idi. Yəni qarşı tərəf əməllərinin isbat olduğunu görüb bu işdən əl çəkməli olduğu halda, əl çəkmədi. Qeyd etdiyim kimi, O.Nərimanoğlu Mətbuat Şurasının etdiyi xəbərdarlıqdan nəticə çıxarmadı və Məhəmmədəli bəy haqqında yazılarını davam etdirdi, eyni zamanda da Mətbuat Şurasına qarşı təhqir, böhtan dolu materiallar hazırlayıb yaymağa başladı".

M.Ələsgərli qeyd etdi ki, MŞ belə hallarla bağlı yalnız rəy verir və hadisəyə ictimai qınaq göstərir, əgər cavabdeh tərəf ictimai qınaqdan nəticə çıxarmırsa, onda qarşı tərəf bu məsələni hüquqi müstəvidə həll etməli olur. "Belə hallarda insanlar məhkəməyə müraciət edib orada öz hüquqlarının müdafiəsinə nail olur. Bu baxımdan, Məhəmmədəli bəy də öz hüquqlarını qorumaq məqsədilə hüquqmühafizə orqanına müraciət edib və öz hüquqlarını məhkəmədə müdafiə edir. Çünki bu məsələ Mətbuat Şurası səviyyəsində öz həllini tapmadı. Mətbuat Şurası bu məsələ ilə bağlı konkret qərar qəbul etsə də, O.Nərimanoğlu bu qərardan nəticə çıxarmaq əvəzinə, tamamilə başqa mövqe tutdu. Məhəmmədəli bəy tam haqlı tərəfdir. Hesab edirəm ki, məhkəmə M.Qəriblinin verdiyi şikayətlə əlaqədar olaraq ədalətli qərar çıxaracaq. Çünki O.Nərimanoğlunun Məhəmmədəli bəyə şər-böhtan atması, onun şərəf və ləyaqətini təhqir etməsi fakdır və arxiv var, onun yazdığı yazılar ortadadır. Məhkəmənin bu faktlara istinad edib ədalətli qərar çıxaracağına ümid edirəm. Biz də Mətbuat Şurası olaraq verdiyimiz qərarımızın üstündə dururuq" - deyə M.Ələsgərli vurğuladı.

***İradə SARIYEVA***

# İkistandartlı siyasət aparan dünya susur, Paşinyan isə siyasi həbsləri kütləviləşdirir...

**Son dövrlər Ermənistanda diqqətçəkən maraqlı hadisələrdən biri də keçmiş hakimiyyət təmsilçilərinin, xüsusən də rəhbər şəxslərin təqib edilməsi, həbsə atılmasıdır. Düzdür, həmin adamlar cinayətkardırlar və ən azından, Azərbaycan ərazilərinin işğalına görə məsuliyyətə cəlb edilməlidirlər. Amma Ermənistanda bu şəxslər işğal, soyqırımı cinayətlərinə görə yox, müxtəlif cinayətlərə görə həbsə atılırlar, istintaqa cəlb olunurlar.**

Onların bir çoxu özlərini siyasi məhbus adlandırır. Amma dünya miqyasında hələlik buna hansısa reaksiya yoxdur. Avropa, ABŞ təşkilatları, qurumları bütün bunları görməzdən gəlirlər.

Məhz bu vəziyyətdə mövcud hakimiyyət təhlükəli saydığı şəxsləri inzibati yolla sıradan çıxarmaqda davam edir. Bunlar əsasən "Qarabağ klanı"nın təmsilçiləridir. Belə bir vaxtda yayılan məlumatlara əsasən, Ermənistan Silahlı Qüvvələrinin keçmiş baş qərargah rəisi, qondarma "DQR"in keçmiş "müdafiə naziri" general Movses Akopyan da 2008-ci il 1 mart hadisələrinin istintaqına cəlb edilib və Xüsusi İstintaq Xidməti tərəfindən dindirilib. Ermənistanda nəşr edilən "Jamanak" qəzeti yazır ki, hazırda Ermənistanın baş hərbi müfəttişi olan Akopyan Dağlıq Qarabağdan mülki şəxslərin və hərbçilərin həmin hadisələr zamanı İrəvana göndərilməsi epizodu üzrə dindirilib. Bundan əvvəl Akopyan özü jurnalistlərə Dağlıq Qarabağ "ordusunun" 2008-ci ilin martında İrəvanda nümayişçilərə qarşı istifadə edilməsi haqda deyilənləri qəti təkzib etmişdi.

Xatırladaq ki, 1 mart hadisələrinin istintaqı çərçivəsində keçmiş prezident Robert Köçəryan hazırda həbsdədir, digər keçmiş prezident Serj Sarkisyan da dindirilir və məlumatlara görə, onun həbsinə hazırlıq gedir. Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan 2008-ci ilin 1 mart hadisələrinə görə istintaqda dindirilib. O hətta Serj Sarkisyanla da üzləşdirilib. Amma onu istintaqa satmayıb. "Qrapa-rak" qəzetinə danışan mənbə bildirib ki, S.Sarkisyan artıq həbs edilə bilər: "Ohanyanın Sarkisyana qarşı ifadə verməsi haqda yayılan xəbərlər doğru deyil, amma Sarkisyanın həbsinə hazırlıq gedir". Mənbə əlavə edib ki, istintaqda hər şey Sarkisyanın həbsinə doğru aparır. Hakimiyyətin "qalan hallarda olduğu kimi" Sarkisyanı da həbs etməyə əsası yoxdur: "Hakimiyyət reytinqinin güclü şəkildə aşağı düşdüyünü görür və ona yeni şou lazımdır, şounu isə bu cür təmin etmək olar". Xatırladaq ki, Sarkisyan 2008-ci ildə prezident seçilib və onun seçkilərin saxtalaşdırılması yolu ilə hakimiyyətə gəlməsi güclü etirazlara səbəb olub. İndiki baş nazir Nikol Paşinyanın da qatıldığı bu etirazların yatırılması üçün ordu yeridilib, 10 nəfər öldürülüb.

Sarkisyanı həbsə atmağa hazırlaşan hakimiyyət Köçəryanı daha ağır şəkildə cəzalandırmaq üçün də fəaliyyətini genişləndirir. Belə ki, Ermənistan Xüsusi İstintaq Xidməti həbsdə olan Robert Köçəryana qarşı daha bir ittiham irəli sürüb. Sabiq dövlət başçısı külli miqdarda rüşvət almaqda ittiham olunur. Xatırladaq ki, Köçəryan 2008-ci ildə ölkədə konstitusiya quruluşunu zorla dəyişdirməkdə ittiham olunaraq ötən il həbs olunub. Amma görünən budur ki, həmin məsələ üzrə həbsə atılan təkcə Köçəryan olmayacaq. Onların həbsinin beynəlxalq miqyasda hansısa reaksiya ilə qarşılanması Nikol Paşinyan iqtidarının bu şəxslərə qarşı daha sərt hərəkət etməsinə gətirib çıxarır. Belə vəziyyətdə bəzi məhbuslar diqqəti özlərinə yönəltmək üçün aclıq aksiyalarından istifadə edir və bu hal getdikcə genişlənir. Son məlumata görə, Ermənistanın "Nubaraşen" həbsxanasında daha bir məhbus, ömürlük azadlıqdan məhrum edilmiş Armen Ter-Saakyan da aclıq aksiyası elan edib. Ermənistan Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nona Navikyanın sözlərinə görə, Avetisyan aclıq aksiyasına 12 fevraldan başlayıb və hazırda həkim nəzarətindədir.



Məhbus Armen Ter-Saakyan isə deyib ki, ona qarşı açılan cinayət işinə yenidən baxılması və yol verilən haqsızlığa son qoyulması üçün aclıq aksiyası keçirir və Ermənistanın ədliyyə naziri Artak Zeynalyanla görüş tələb edir.

12 fevraldan etibarən Ermənistanda ömürlük həbsə məhkum edilmiş digər məhbus, 39 yaşlı Aram Xaçikyan da aclıq aksiyası keçirir. Həmçinin, ömürlük azadlıqdan məhrum edilmiş Vaqarşak Avetisyan isə 16 gündür "Armavir" cəzaçəkmə müəssisəsində aclıq elan edib. Onların sözlərinə görə, vaxtilə məhkəmədə hakimin çıxardığı hökmlər qeyri-obyektiv və qərəzlidir. Aclıq aksiyası elan etməklə məhbuslar aidiyyəti qurumların diqqətini ədliyyə sistemindəki haqsızlıq və özbaşınalığa çəkmək və onlara qarşı açılan cinayət işinə, çıxarılan hökmlərə yenidən baxılmasını istəyirlər.

Erməni mediası isə son zamanlar Ermənistan həbsxanalarındakı həm siyasi, həm də digər məhbuslar arasında aclıq edənlərin sayının artmasına və aksiyanın ölümlə nəticələnməsinə diqqət çəkir. Ən son nümunə isə "Nubaraşen" həbsxanasında saxlanan "Ermənistan qartalları - Vahid Ermənistan" partiyasının sədr müavini, hökumət əleyhinə çıxdığına görə həbs olunan Mqer Yegizaryanın 44 günlük aclıq aksiyasından sonra yanvarın 26-da ölməsidir. Bundan əlavə, Ermənistan mediası yazır ki, "Armavir" cəzaçəkmə müəssisəsində cəmi bir neçə gün əvvəl 61 yaşlı məhbus A.Aram və 20 yanvar tarixində isə digər məhbus Saak Saakyan dünyasını dəyişib. Onların ölümünə səbəb həbsxana nəzarətçilərinin məhbuslarla pis davranışı, qeyri-sağlam qidanın verilməsi və həkim nəzarətindən kənarda qalmaları olub.

***Tahir TAĞIYEV***

# Qondarma "DQR"də Paşinyançı qüvvələrin hakimiyyətə gəlişi və Qarabağ həll prosesinin sonrakı gedişi...

## *Fikrət Sadıqov: "Əsas oyunçu rəsmi İrəvan və onu dəstəkləyən müəyyən xarici qüvvələrdir"*

**Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəlməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müəyyən ümidlər yaratdı. Ən azından ona görə ki, Ermənistanda 20 il hakimiyyətdə olan və müharibə tərəfdarı olan "Qarabağ klanı" hakimiyyətdən getdi. Onun hakimiyyətə gəlməsi, kiçik də olsa, bir ümid yaratdı ki, bu siyasətçi ilə danışıq aparmaq olar.**




Ancaq Ermənistanda "Qarabağ klanı" hakimiyyətdən getsə də, separatçı qurum hələ də bu klanın nəzarəti altındadır. Paşinyan baş nazir olandan sonra, yarıgizli-yarıaçıq, tərəflər arasında müəyyən ziddiyyətlər özünü göstərir. Paşinyanın əsas hədəflərindən biri də separatçı qurumun rəhbərliyini öz tərəfdarlarını yerləşdirməkdir. Paşinyanın "Qarabağ klanı"nın aparıcı fiquru olan keçmiş prezident Röbert Köçəryanı həbs etdirməsi, həmçinin, Serj Sarkisyanı küncə sıxışdırması o məqsəd güdürdü ki, bu klan sarsılsın və separatçı rejim Paşinyanın nəzarətinə keçsin. Aparılan bu kampaniyalar çərçivəsində ötən ilin dekabrında "Qarabağ klanı" maraqlarından çıxış edən siyasi qüvvələr parlamentə düşə bilmədilər. Düzdür, onlar Ermənistan cəmiyyətində nüfuzdan düşüblər. Ancaq məlum kampaniyanın da proseslərə müəyyən təsiri olub. Hələlik reallıq ondan ibarətdir ki, Paşinyan separatçı qurumda hakimiyyətin dəyişməsinə nail ola bilməyib. Ancaq görünən odur ki, bütün vasitələrlə bu istiqamətdə səylərini artırıb. Belə olan halda, maraqlıdır, Ermənistanda olduğu kimi, Dağlıq Qarabağdakı separatçı qurumda da hakimiyyət dəyişsə və Paşinyanın adamlarının əlinə keçsə, bu, münaqişənin həllinə hansısa perspektiv aça bilərmi?

*"O baxımdan düşünmürəm ki, separatçı qurumda hakimiyyətin dəyişməsi sülh üçün hansısa perspektiv açsın"*

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov bunu istisna etdi:** "Çünki burada əsas oyunçu Ermənistandır. Bununla yanaşı, Paşinyan əlindən gələni edəcək ki, Dağlıq Qarabağdakı separatçı rejimin rəhbərləri dəyişsin. Ona görə ki, onlar keçmiş Ermənistan hakimiyyətinin adamlarıdır. İndi Paşinyan özünü böyük bir demokrat hesab edir. Guya birbaşa olaraq Dağlıq Qarabağdakı separatçı qurumun işlərinə müdaxilə etmək istəmir. Ancaq dolayı yolla o, əlindən gələni edəcək ki, orada hakimiyyət dəyişsin. İndiki rəhbərlərin əvəzinə başqaları gəlsin. Ancaq bu o demək deyil ki, separatçı qurumun rəhbərliyi başqa bir regionun adamları ilə əvəzlənəcək. Fikrimcə, separatçı qurumda yaşayan ermənilər müəyyən postlara gətiriləcək. Düşünürəm ki, Dağlıq Qarabağdakı separatçı rejim birinci cərgədə olan oyunçular deyil. Əsas oyunçu rəsmi İrəvan və onu dəstəkləyən müəyyən xarici qüvvələrdir. O baxımdan düşünmürəm ki, separatçı qurumda hakimiyyətin dəyişməsi sülh üçün hansısa perspektiv açsın. Dağlıq Qarabağ məsələsinin həllində dəyişikliklər o vaxt ola bilər ki, xarici təzyiqlər artsın və Azərbaycan güc tətbiq etsin. Hesab edirəm ki, yalnız o halda bu məsələdə hansısa irəliləyiş ola bilər".

***Vidadi ORDAHALLI***

# Ceyhun Bayramov Azərbaycanın təhsil sistemində daha bir əhəmiyyətli yeniliyin anonsunu verdi...

***Mələhət Mürşüdlü:** "Belə bir qərarın verilməsi həm vacib idi, həm də gözlənilən"*

**Ötən illə müqayisədə dövlət sifarişli yerlər növbəti tədris ili üçün 12324-dən 20500-ə kimi artırılıb. Bu barədə təhsil naziri Ceyhun Bayramov "Günün nəbzi" verilişində deyib. Nazir bildirib ki, 2019-2020-ci tədris ili üçün dövlət sifarişli yerlərlə bağlı sənəd müvafiq olaraq Nazirlər Kabinetində təsdiq olunma mərhələsindədir:**



*"Dövlət sifarişlərinin artırılması çox istedadlı, amma maddi vəziyyəti əlverişli olmayan gənclərin təhsil almasına şərait yaradacaq"*

"Bir il ərzində dövlət sifarişli yerlərdə 65 faizdən artıq artım görürük. Hesab edirik ki, növbəti illərdə də müsbət tendensiya davam edəcək. Yalnız növbəti ilin proqnoz yerlərindən danışılırsa, dövlət sifarişli yerlərin sayı 42 faiz müəyyən edilib. 2018-2019-cu təqvim ili üçün bu rəqəm 30 faizin altında idi. Bu da bir il ərzində əlavə sifarişli yerlərin olması deməkdir. Bu, dövlət vəsaiti hesabına təhsilin müxtəlif istiqamətlərində gənclərə ali təhsil imkanlarının verilməsi və genişlənməsidir".

Sözügedən qərar bu sahədə ciddi yeniliklərin olacağından xəbər verir. Məsələ ondadır ki, son illərə qədər ödənişli ixtisasların sayı ilbəil artırdı. Bu da cəmiyyətdə birmənalı qarşılanmırdı. Çünki bir çoxlarının ödənişli əsaslarla təhsil almaq imkanının olmaması son nəticədə onların təhsildən kənarda qalmasına gətirib çıxarır. Müşahidələr göstərir ki, dövlət sifarişli yerlərə tələbat daha böyükdür. O baxımdan, belə bir qərarın verilməsi böyük marağa səbəb olub.

Maraqlıdır, bəs ekspertlər dövlət sifarişli yerlərin növbəti tədris ili üçün 12324-dən 20500-ə kimi artırılmasını necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən təhsil məsələləri üzrə ekspert Mələhət Mürşüdlünün sözlərinə görə, dövlət sifarişli yerlərin sayının artırılması müsbət haldır:** "Belə bir qərarın verilməsi həm vacib idi, həm də gözlənilən. Yaxşı ki, bununla bağlı belə bir qərar verildi. Ancaq, bununla belə, hesab edirəm ki, dövlət sifarişli yerlərin 12324-dən 20500-ə kimi artırılması yenə də yetərli deyil. Yəni yeri gələndə bu da azdır. Hesab edirəm ki, növbəti tədris illərində bunun sayı daha da artırılmalıdır. Dövlət sifarişlərinin artırılması çox istedadlı, amma maddi vəziyyəti əlverişli olmayan gənclərin təhsil almasına şərait yaradacaq. Çünki nə qədər belə vətəndaş var ki, maddi sıxıntılar üzündən ali təhsil ala bilmir. Dövlət sifarişləri az olduğuna görə ballar çox yüksəkdir. Məlum qərar, öz növbəsində, daha çox sayda ölkə vətəndaşının ali təhsil almasına şərait yaradacaq. Nə qədər çox gənc ali təhsil alsa, bu bir o qədər ölkənin inkişafına, tərəqqisinə öz töhfəsini verəcək. Ona görə də belə bir qərarın verilməsinə müsbət yanaşıram. Məndən olsa, bütün yerlər dövlət sifarişi ilə olmalıdır. Azərbaycan Konstitusiyasında yazılıb ki, təhsil pulsuzdur. O baxımdan hesab edirəm ki, bütün yerlər pulsuz olmalıdır".

***Vidadi ORDAHALLI***

# Havar Məmmədov BMU-da şəffaf təhsil prosesini sonadək qoruyacağına söz verdi

*Bakı Mühəndislik Universitetinin memar tələbələrinin yaratdığı "kiçik möcüzələr" media rəhbərlərinə təqdim olundu*

**Memarlıq və inşaat kafedrasının təşkilatçılığı ilə 2018/2019-cu tədris ilinin payız sessiyasının nəticəsi olaraq Memarlıq, Şəhərsalma və Dizayn ixtisaslarında təhsil alan tələbələrin Yaradıcılıq-hesabat sərgisi keçirilib.**







Sərginin açılış tədbirində universitet əməkdaşları ilə yanaşı, Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli və KİV rəhbərləri iştirak ediblər.

Universitetin rektoru, professor Havar Məmmədov rəsmi qonaqlarla birgə sərginin açılış lentini kəsib və qonaqlara universitetin fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə sürətli inkişaf gedir, yeni innovativ texnologiyalı istehsalat müəssisələri açılır. Bakı Mühəndislik Universiteti də "Sahibkar Universitet" olmaq istiqamətində fəaliyyət göstərir. Universitetdə müasir sənayenin tələbinə uyğun kadr hazırlığına mühüm diqqət yetirilidiyini diqqətə çatdıran rektor əlavə edib ki, digər universitetlərdən fərqli olaraq, Bakı Mühəndislik Universitetində Memarlıq, Şəhərsalma və Dizayn ixtisasları üzrə tələbələr qabiliyyət imtahanı vermədən universitetə qəbul olunurlar. Buna baxmayaraq, müəllimlərin zəhməti nəticəsində əldə olunmuş nailiyyətlər təşkil olunan sərgidə öz əksini tapıb.

Havar Məmmədov birmənalı olaraq vurğulayıb ki, neqativ hallara qarşı sonadək barışmaz olacaq və bu kollektiv bu əhval-ruhiyyədədir. Rektor H.Məmmədov Mühəndislik Universitetinin keçmiş Qafqaz Universitetinin bazasında yaradıldığını, onun rektor təyinatından sonra çox şeyin dəyişdirildiyini bildirib. Rektor media nümayəndələrinə qəti bildirib ki, şəffaf və neqativlərdən tam sığortalanmış təlim-tədris ənənəsini davam etdirmək əzmindədir və bunu sonadək aparacaq.

Qonaqları sərgi ilə tanış edən Memarlıq və inşaat kafedrasının müdiri, əməkdar memar, professor Sabir Orucov sərgini BMU-da olan mühitin, əsasən də tələbə-müəllim münasibətlərinin bəhrəsi kimi xarakterizə edib. İnkişafımızın təməl prinsipləri kontekstində sərgidə Memarlıq və inşaat kafedrasının müəllimlərinin və tələbələrinin yaradıcılıq işləri nümayiş olunur. Sərgi əsasən memarlıq layihələndirilməsi və onun əsasları, dizaynın əsasları, kompyuter qrafikası, rəsm və rəngkarlıq sahələri üzrə təşkil olunub. Bakı Mühəndislik Universitetində təşkil olunan sərgidə Memarlıq, Şəhərsalma və Dizayn ixtisaslarında təhsil alan tələbələrin, ümumilikdə, 200-ə yaxın işi nümayiş olunub.

Qeyd edək ki, Memarlıq və inşaat kafedrası yarandığı gündən etibarən ana istiqamətlərdən biri olaraq mütəmadi şəkildə hər semestrin sonu tələbələrin yaradıcılıq-hesabat sərgisini keçirir. İxtisas fənlərinin tədrisi fərdi, qrup və kollektiv yanaşma üzərində qurulur ki, bu da sərgidə nümayiş olunan layihələrdə öz əksini tapıb. Kollektiv əməyin məhsulu kimi Bakı Mühəndislik Universiteti şəhərciyinin gələcək inkişaf konsepsiyası layihəsi - maketi bunun barız nümunəsi sayıla bilər. BMU-da bünövrəsi yeni qoyulan Memarlıq, Şəhərsalma və Dizayn ixtisaslarının təşkilində Memarlıq və inşaat kafedrasının formalaşan kollektivi milli-mənəvi dəyərlərimizlə yanaşı, sürətlə inkişaf edən dünyamızın ən yeni standartlarını da nəzərə almağı qarşısına məqsəd qoyub.

***Baki-xeber.com***

**Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə və təhsil ictimaiyyətinə diqqət və qayğısı davam edir. Dövlət başçısı doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında sərəncam imzalayıb. Qeyd edək ki, 110 minə yaxın təhsilalanın təqaüdü artırılıb.**

# Tələbələr də dövlətin sosial dəstək siyasətindən kənarda qalmadı...

## *Kamran Əsədov: "Tələbə təqaüdü məbləğinin artımı onların sosial qayğılarını azaldacaq"*



*"Tələbə təqaüdünün artırılması təhsilin keyfiyyətinin artırılmasına birbaşa yönələcək"*

Sərəncama əsasən, elmlər doktoru hazırlığı üzrə doktorantlara 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara isə 180 manat təqaüd təyin edilib. Ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələrə 170 manat təqaüd veriləcək. Magistratura səviyyəsi üzrə isə akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 145 manat, 71-100 bal olan tələbələrə - 120 manat, 51-100 bal olan tələbələrə isə 80 manat təqaüd müəyyən edilib. Bakalavriat səviyyəsində təhsil alanların da təqaüdləri artırılıb. Bu səviyyə üzrə akademik göstəriciləri 91-100 bal olan tələbələr 130 manat, 71-100 bal olan tələbələr 110 manat, 51-100 bal olan tələbələr isə 75 manat təqaüd alacaqlar.

Orta ixtisas təhsili müəssisələrində isə akademik göstəriciləri 91-100 bal olan tələbələrə 75 manat, 71-100 bal olan tələbələrə 60 manat, 51-100 bal olan tələbələrə 50 manat təqaüd veriləcək. Peşə təhsili müəssisələrinin tələbələrinə isə 50 manat təqaüd təyin edilib.

Dövlət başçısı, həmçinin, ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə də sərəncam imzalayıb. Sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 16 min vahid artırılıb. Eləcə də təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması qərara alınıb.

Prezident İlham Əliyevin imzaladığı Fərmanla "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Prezidentin 2001-ci il 3 sentyabr tarixli, 564 nömrəli Fərmanında dəyişiklik edilib. Dəyişikliyə əsasən, Prezident təqaüdünün məbləği artırılaraq 185 manatdan 210 manata çatdırılıb. Fərman martın 1-dən qüvvəyə minir.

110 minə yaxın tələbənin təhsil haqqının artırılması təhsilin keyfiyyətinə, tələbələrin sosial rifahının yüksəlməsinə səbəb olacaq.

**Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda fəaliyyət göstərən 54 ali təhsil müəssisəsində 164 min tələbə təhsil alır.** Onların yalnız 31 faizi ödənişsiz təhsil aldığı üçün təqaüd alır.

Həmsöhbətimizin sözlərinə görə, Prezident İ.Əliyevin tələbələr, magistr və doktorantlarla bağlı verdiyi qərar təhsilalanların həyat şəraitinə müsbət təsir edəcək: "Tələbənin maddi problemi olmazsa, onlar təhsilin keyfiyyətinin artırılmasına maraq göstərəcəklər. Tələbələr özlərini təkmilləşdirmək üçün hazırlıq kursuna gedəcək, xarici dil öyrənmək istəyəcəklər. Həmçinin, onların sosial problemləri də həll olunacaq. Tələbə təqaüdünün artırılması təhsilin inkişafına kömək edəcək".

Təhsil eksperti hesab edir ki, tələbə təqaüdünün artırılması mütərəqqi addımdır. Tələbə təqaüdünün artırılması imkan verəcək təhsilin əhatə dairəsi genişləndirilsin. Tələbələr həmin artımı özlərinin səmərəli inkişafı üçün sərf edəcəklər: "Tələbə təqaüdünün artırılması təhsilin keyfiyyətinin artırılmasına birbaşa yönələcək. O da bəllidir ki, bəzi hallarda tələbələr maddi imkanı yetərincə olmadığı üçün, tez-tez dərsə gələ bilmirdilər. Artıq tələbə təqaüdü məbləğinin artımı onların sosial qayğılarını azaldacaq".

K.Əsədov bildirdi ki, tələbələrə dövlət tərəfindən təqaüd verilməklə yanaşı, onlara əlavə təqaüd də verilir: "Bəllidir ki, ali təhsil müəssisələrinə qəbulda 500 və daha yüksək bal toplayan, ixtisas seçimində birinci müəllimlik ixtisasını qeyd edən tələbələrə 100 manat məbləğində əlavə təqaüd verilir. Həmçinin, SABAH qrupunda oxuyanlara əlavə olaraq 50 manat dəyərində təqaüd verilir. Bununla yanaşı, "Azercell" və SOCAR-ın layihələri əsasında tələbələrə maddi dəstək olaraq əlavə təqaüd verilir. Yaxşı akademik göstəricisi olan tələbə 500 manata yaxın təqaüd ala bilər. Bu kifayət qədər böyük rəqəmdir. Bununla yanaşı, tələbə təqaüdünün də artırılması sevindirici bir addımdır".

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, Vergilər Nazirliyində 2018-ci ilin yekunlarına və 2019-cu ilin vəzifələrinə həsr edilmiş geniş tərkibli kollegiya iclası keçirilib. İclasda çıxış edən vergilər naziri Mikayıl Cabbarov 2018-ci ilin yeni vəzifələrin və iş prinsiplərinin icrası və tətbiqi baxımından çox əhəmiyyətli dövr olduğunu deyib, vergi sistemində struktur yenilikləri və kadr islahatlarının aparıldığını, inzibatçılıqda yeni prinsiplərin tətbiq edildiyini, qanunvericiliyin təkmilləşdirildiyini diqqətə çatdırıb.**

# Azərbaycanda vergi ombudsmanı...(?)

## *Fikrət Yusifov: "Vergilər Nazirliyinin vergi ombudsmanı yaratmaq təşəbbüsü təqdirəlayiq bir addımdır"*




*"Yeni təsisat vergi ödəyiciləri ilə dövlət arasındakı münasibətlərin etibarlığının təmin olunmasına ciddi töhfə verəcək"*

M.Cabbarov deyib ki, sahibkarların hüquqlarını qoruyan yeni və daha effektiv mexanizmlərin yaradılması istiqamətində araşdırmalar aparılıb və inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi əsas götürülərək vergi ombudsmanı institutunun yaradılması qərara alınıb.

Məlumat üçün qeyd edək ki, vergi ombudsmanı institutu dedikdə, əsasən iki anlayış nəzərdə tutulur: birincisi, ölkənin vergi administrasiyasından və Ombudsman Aparatından ayrıca fəaliyyət göstərən qurum; ikincisi, ölkədə mövcud olan Ombudsman Aparatının tərkibində vergi ödəyicilərinin hüquqlarını qoruyan struktur. Vergi məsələləri üzrə ombudsmanın fəaliyyətinin əsas prinsiplərinə gəlincə, başlıca məqsəd və vəzifə vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək, onların şikayət və müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan həllinə nail olmaq, vergi administrasiyaları ilə münasibətlərin sivil formada tənzimlənməsinə kömək göstərməkdir.

Bütün bu deyilənlərlə yanaşı, ölkədə vergi ombudsmanının yaradılmasını ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisad elmləri doktoru Fikrət Yusifov vergi ombudsmanının yaradılmasına müsbət prizmadan yanaşdı:** "Bu gün Vergilər Nazirliyinin apardığı islahatlar vergi ödəyiciləri ilə dövlət arasında münasibətlərin ən optimal variantının formalaşdırılmasını hədəfləyir. Bir sözlə, islahatların fəlsəfəsini vergi ödəyicilərinin vergi yükünün optimallaşdırılması təşkil edir. Bu, aparılan islahatların olduqca mühüm tərəfidir. Vergilər Nazirliyinin təşəbbüsü ilə Vergi Məcəlləsində bu ilin yanvar ayının əvvəlindən tətbiq olunmağa başlayan yeniliklər də bilavasitə bu məqsədlərə xidmət edir. Bu hələ son deyil. Vergilər Nazirliyi bundan sonra da islahatlar kursunu davam etdirmək niyyətindədir. Beynəlxalq təcrübədə yaxşı olan bütün alətlərdən yararlanmaq da islahatların səmərəliliyinin artırılması istiqamətində atılan addımlardan biridir. Bu sırada Vergilər Nazirliyinin vergi ombudsmanı yaratmaq təşəbbüsü təqdirəlayiq bir addımdır. Əslində, bu addımla Vergilər Nazirliyi daha çox vergi ödəyicilərinin hüquqlarının qorunmasını təmin etmək niyyətindədir".

F.Yusifovun fikrincə, M.Cabbarovun bilavasitə təşəbbüsü ilə yaradılacaq bu institutun fəaliyyəti vergi ödəyicilərinə mübahisəli məsələləri məhkəməyə çıxarmadan həll etməyə imkan verəcək: "Bununla da Vergilər Nazirliyində vergi ödəyiciləri ilə mübahisəli məsələlərin həllində əvvəllər mövcud olmuş lüzumsuz təcrübəyə alternativ olan yeni - vergi ödəyicilərinin hüquqlarını daha çox müdafiə edən bir qayda ortaya qoyulmuş olacaq. Vergi ödəyicilərinin hüquqlarının daha yaxşı qorunmasına xidmət edəcək ombudsman institutu vergi ödəyiciləri ilə dövlət arasındakı münasibətlərin etibarlığının təmin olunmasına da ciddi töhfə verəcək. Vergilər Nazirliyi bu gün vergi ödəyiciləri ilə dövlət arasında münasibətləri elə bir səviyyəyə yüksəltmək istəyir ki, vergi ödəyiciləri öz konstitusiya borclarını məmnuniyyətlə yerinə yetirməyə köklənsinlər. Buna qədər vergi ödəyicilərinin əlindən bu məmnunluğu alan iki ciddi problem mövcud idi.

Bunlardan birincisi vergi yükünün ağırlığı, ikincisi isə vergi ödəyicilərinin qabaqdakı dövrlər üçün vergi ödənişləri aparmağa təhrik olunması idi. Aparılan islahatlar birinci problemin, yəni vergi yükünün optimallaşdırılması probleminin həll olunmasına imkan verdi. İkinci problem, yeni qabaqkı dövrlər üçün vergi ödəmək kimi eybəcər bir təcrübəyə isə son qoyuldu".

***Vidadi ORDAHALLI***

# Erməni kilsə xadimlərinin dəhşətli korrupsiya faktları dünya mediasına yayıldı...

**Rusiyanın lenta.ru saytı erməni kilsə xadimlərinin korrupsiya və digər bağışlanmaz əməlləri barədə araşdırma yazı dərc edib. Baki-xeber.com-un xəbərinə görə, yazıda erməni apostol kilsəsi rəhbərlərinin bahalı maşınlarda gəzməsi, silah gəzdirməsi və korrupsiyaya bulaşması konkret faktlarla təqdim olunur, bu əməllərin istər müasir qanunlar, istərsə də dini baxımdan yolverilməzliyinə diqqət çəkilir.**



*Qareginin illər öncə bir fəhləyə dediyi sözlər güllə kimi özünə dəyir...*

Məqalə müəllifi xatırladır ki, monoton ölkə olan Ermənistanda cəmi 3 milyona yaxın əhali yaşasa da, bütün dünya ölkələrinə səpələnmiş ermənilərin sayı 10-12 milyon civarındadır və onları bir araya gətirən Erməni Apostol Kilsəsidir.

Məsələ burasındadır ki, on ildir bütün ölkə üzrə avtoritetini sürdürən Pariarxın dayaqları ötən ildən laxlamağa başlayıb. Belə ki, Ermənistan əhalisinin böyük bir hissəsi ötən il patriarx II Qareginin istefası tələbilə dəfələrlə aksiya keçirib, maşınını əhatə edərək çağırışlar səsləndirib, hətta Eçmiədzində kütləvi dava belə baş verib. Bütün bu etirazların əsas motivini isə kilsə xadiminin sultansayağı həyat tərzi keçirməsi təşkil edib. Daha bir səbəb kimi isə onun qohumbazlığı və yerlibazlığı göstərilir və öz sahəsində önəmli postlara qohum və dostlarının yerləşdirildiyi konkret faktlarla təqdim olunur.

Bu etirazlar əslində başlanğıcını daha əvvəldən - 2011-ci ildən götürür. Belə ki, həmin ildə Qaregin özünün doğum gününü təntənəli şəkildə İrəvanın ən bahalı restoranlarından olan "Florence"-də qeyd etməsilə gündəmə gəlib. Onun qonaqları arasında isə, din xadimləri ilə yanaşı, İrəvanın elit təbəqə nümayəndələri, məmurlar və biznesmenlər olub. Həmin restoranın sahibi isə o illərdə yeni mer seçilmiş Karen Karapetyandır.

Məqalədə qeyd olunur ki, Qaregin Eçmiədzinin Dini Seminariyasında "Biznesin əsasları" kursu apararkən dəfələrlə "biz pul qazanmağı bacarmalıyıq" sözünü işlədib və həyatda bunu uğurla tətbiq edə bilib. Belə ki, 2015-ci ildə jurnalistlərin beynəlxalq konsorsiumu "İsveçrə qaymaqları" (Swiss Leaks) adlı araşdırma apararaq bir sıra sənədləri mətbuatda dərc edib ki, həmin sənədlərdə HSBC bankının 1988 - 2007-ci illərdə müştəriləri barəsində məlumatlar yer alıb. Bu müştərilər arasında isə 1,1 milyon ABŞ dolları depoziti ilə II Qareginin də adı olub.

Lakin az qala sultan həyatı yaşayan təkcə II Qaregin deyil. Din xadimlərindən Ararat yeparxiyasının arxiyepiskopu Navasard Kçoyan 2011-ci ildə özünün "xaç atasından" 200 min dollarlıq "Benltey Continental Flying Spur" maşını hədiyyə alıb. Jurnalistin bu barədə sualına qıcıqla cavab verən Kçoyan onu "şəxsi həyatına qarışmaqda" suçlayıb. Bu isə onun adının qalmaqalda hallanması ilə bağlı ilk hadisə deyil. Belə ki, 2007-ci ildə Navasard o zamankı baş nazir Serj Sarkisyanın ona qiymətli silah hədiyyə etməsilə diqqətləri üzərinə çəkib və "odlu silah arxiyepiskopun nəyinə gərəkdir" kimi haqlı sualların gündəmə gəlməsinə səbəb olub.

II Qareginin avtomobil azartına gəldikdə, şəhərdə "Mercedes-Benz S-Class"-la gəzən patriarx dağlıq ərazilər üçün məxsusi "Lexus GX460"-dan istifadə edir. Bu azartı isə onu Roma Papası Frensiskin 2016-cı ildə İrəvana səfəri zamanı pis vəziyyətdə qoyub. Belə ki, Fransisk İrəvan küçələrində ağ rəngli "Renault Logan"da hərəkət etdiyi, hətta açıq pəncərəsindən heç bir müdaxilədən çəkinmədən sakinləri salamladığı halda Qaregin görüşə özünün "Mercedes-Benz" maşınında, həm də "Toyota Land-Cruiser 200" kortejinin müşayiətilə gəlib, Ararat arxiyepiskopu isə "Range Rover Sport"un müşayiətilə özünün "Bentley"sində...

Erməni katolikosunun evi barədə isə məlumatlar o qədər də çox deyil. Belə ki, o, çox zaman Ermənistanın Vatikanı adlandırılan Eçmiədzin monastır kompleksində yaşayır. Bu monastır kompleksinə isə kənar şəxslərin daxil olması qadağandır. Lakin o da məlumdur ki, bir neçə il əvvəl katolikos İrəvanda şəxsi iqamətgahının tikilməsi üçün ərazi alıb. 2011-ci ildə tikintisinə başlanan iqamətgahın dəyəri 5 milyon dollar civarında qiymətləndirilir.Maraqlıdır ki, həmin ərazidə Müqəddəs Anna kilsəsi də tikilib və bu tikintilərin aparılması üçün Ermənistan Elmlər Akademiyasının bu ərazidə yerləşən Dil İnstitutunun binası sökülüb ki, bu da ciddi qalmaqala səbəb olub.

Katolikosun adının zaman-zaman mətbuatda hallanmasının daha bir səbəbi onun evli olub-olmaması ilə bağlıdır. Belə ki, katolik ruhanilərin evlənməsi dinlə yasaq olduğu halda, müxtəlif zamanlarda fərqli qadınların onun arvadı olması iddiası ilə mətbuata çıxması sirr deyil, hətta onun ərgən yaşda qızlarının da olduğu deyilir. 2012-ci ildə isə məhz bu səbəbdən Qareginin impiçment məsələsi gündəmə gəlib. 2015-ci ildə katolikosa yaxın şəxs "Hraparak" qəzetinə Qareginin qızının 1981-ci ildə anadan olduğunu və nənəsinin xatirəsinə ona Xatun adı qoyulduğunu bildirib.

Evlilikdən savayı, Katolikosun adı bədnam eynicincli əlaqələrdə də hallanır. Elə Ermənistanın özünün "Shame" nəşri yüksək çinli kilsə xadimlərinin bu tip əlaqələrinin araşdırılmasına dair məqalə dərc edib ki, bu siyahıda 20 kilsə xadiminin eynicinsli əlaqələri faktlarla göstərilib. Üstəlik, onun adı uşaqbazlıqda da hallanır ki, eynicinsli əlaqələr dünyanın bəzi ölkələrində adi qəbul olunsa da, uşaqbazlığın bütün dünyada bəhanəsi yoxdur. Ötən illərdə isə II Qareginin qardaşı, Rusiya arxiyepiskopu Ezras Nersisyan azyaşlını zorlamaqda ittiham olunub. Məsələ burasındadır ki, həmin azyaşlı, erməni əsilli argentinalı Mikael (Marçello)valideynlərini avtoqəzada itirib və Mikaeli Eçmiədzin himayəsinə alıb, burda isə o, Nersisyanın təcavüzünə məruz qalıb.

Lakin pedofiliyada günahlandırılan təkcə Nersisyan deyil. 2015-ci ildə Fransada Hrayr Ezekelyan erməni arxiyepiskop David Saakyanı 1990-cı illərdə Qüdsdəki Erməni Apostol Kilsəsində ona təcavüz etməsilə bağlı məhkəməyə verib və 1 il sonra iş məhkəməyə verilib, lakin məhkəmə başa çatmadan günahlandırılan şəxs dünyasını dəyişib.

Bütün bu deyilənlər Ermənistanın və ümumiyyətlə ermənilərin hansı milli-mənəvi dəyərlərə malik olduğunu (əslində olmadığını) aşkar ortaya qoyan real faktlardır. Məsələnin Rusiya mətbuatının gündəminə gəlməsi isə ayrı bir söhbətin mövzusudur.

**Samirə SƏFƏROVA**

# KTMT baş katibi məsələsində Paşinyanın avantürası nota ilə nəticələndi...

**Məlum olduğu kimi, Belarus Ermənistana nota verib. Belarus XİN-in mətbuat katibi Anatoliy Qlaz jurnalistlərə açıqlamasında bildirib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibinin olmaması təşkilatın işinin xeyrinə deyil: "KTMT baş katibsiz artıq uzun müddətdir fəaliyyət göstərir.Vəziyyət təşkilatın xeyrinə deyil və dərhal həllini istəyir".**

## *Ramil Hüseynov: "Vəziyyətin bu cür davam etməsi Belarus-Ermənistan münasibətlərini daha da gərginləşdirə bilər"*

XİN rəsmisi qeyd edib ki, Astana və Sankt-Peterburqda keçirilən görüşlər zamanı ölkə başçıları Zasın namizədliyini dəstəkləyiblər: "Hələ ötən ilin dekabrında KTMT Baş Katibliyi Stanislav Zasın təyin edilməsi əsasında layihə hazırlayıb. O, beş paytaxtda ölkə rəhbərləri ilə görüşüb, bütün prezidentlər onu dəstəkləyiblər".



Qlaz onu da əlavə edib ki, Belarus parlament seçkilərinin keçirilməsi və yeni hökumətin formalaşdırılması ilə bağlı Ermənistan baş naziri Nikol Paşinyanın Belarus Prezidenti ilə görüşü imkanının olmamasını anlayışla qarşılayıb. Bu arada Minsk ümid edir ki, yaxın vaxtlarda erməni tərəfi görüşün tarixi barədə məlumat verəcək: "Belarus qarşılıqlı anlaşmaya ümid edir və hesab edir ki, baş katib postu "oteldə bron edilməsi mümkün olan nömrə deyil". Bütün ölkələr bu məsələnin həllində - bu "texniki anın" KTMT-nin işinə, həmçinin, iştirakçı ölkələr arasında ikitərəfli münasibətlərə təsir etməməsində maraqlıdır".

Görünən odur ki, sözügedən məsələdə tərəflər arasında gərginlik davam etməkdədir. Ermənistanın bunu yubatması Belarusun bu ölkə ilə münasibətlərində gərginliyin daha da artacağından xəbər verir. Onu da qeyd edək ki, bir müddət əvvəl KTMT baş katibi vəzifəsinə iddialı olan Stanislav Zas

## *"Ola bilsin ki, belə qeyri-müəyyənlik Rusiyaya sərf edir"*

Minskdə jurnalistlərlə görüşdə prosesin hələ yerindən tərpənmədiyini demişdi: "Baş nazir ilə görüş hələlik baş tutmayıb. Mən erməni tərəfi üçün istənilən münasib vaxtda onunla görüşmək təklifini irəli sürmüşəm. Hələlik bir cavab almamışıq".

Zas, həmçinin, demişdi ki, KTMT-nin nizamnaməsi, eyni zamanda, məhdud tərkibdə bir sıra qərarların qəbul edilməsinə də imkan verir. Onun fikrincə, indiki halda, bu üsul qəbuledilməzdir və hərbi-siyasi ittifaqın normal fəaliyyəti üçün konsensus əsasında verilərək qərar zəruridir.

Proseslərin bu cür davam etməsi nə vəd edir?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Paşinyan prosesi uzatmaqla müəyyən dividendlər əldə etmək istəyir:** "Fikrimcə, əvvəl-axır, Paşinyan bununla razılaşacaq. Ona görə ki, o, uzun müddət qurumun fəaliyyətini iflic vəziyyətində saxlaya bilməz. Sadəcə fikirləşir ki, bunu indi etsə, hörmətdən düşəcək və bu onun reytinqinə mənfi təsir edəcək. Ona görə də siyasi oyun oynayır. İstəyir ki, razılıq verməsi yubansın və yaxud da bunun müqabilində Belarusdan nəsə qoparsın. Ancaq vəziyyətin bu cür davam etməsi Belarus-Ermənistan münasibətlərini daha da gərginləşdirə bilər. Digər tərəfdən, KTMT sədrinin səlahiyyətlərini müvəqqəti olaraq Rusiya nümayəndəsi icra edir. Ola bilsin ki, belə qeyri-müəyyənlik Rusiyaya sərf edir. O üzdən, bu məsələdə Paşinyana təzyiq göstərməyə tələsmir. Bu amilin də rolu ola bilər".

**Vidadi ORDAHALLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Ərazi müqabilində status yox, ərazi müqabilində Ermənistanın iqtisadi nicatı..."

*Azərbaycan diplomatiyası münaqişənin həll prosesinin faktiki məntiqini dəyişdi...*

**Azərbaycanın hərbi, diplomatik, iqtisadi və digər istiqamətlərdə Ermənistandan dəfələrlə üstün mövqedə olması Dağlıq Qarabağ münaqişəsi ilə bağlı artıq yeni vəziyyət yaradıb. Zəif mövqedə olan Ermənistan üçün Azərbaycanın uğurlu gedişləri nəticəsində yaranan ən böyük problemlərdən biri isə beynəlxalq aləmin İrəvanın işğal siyasətini daha sərt formada pisləməsidir.**

Artıq birmənalı həqiqətdir ki, bütün beynəlxalq aləm Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Dağlıq Qarabağ və ətraf əraziləri işğal olunmuş ərazilər sayır.

Yaranmış durumda dünya onu da qəbul edir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ilkin mərhələdə torpaqlar işğaldan azad olunmalı, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Yalnız bundan sonra Ermənistanla normal münasibətlərin qurulması mümkün hala gələ bilər. Bu fonda o da diqqətçəkən məqamlardandır ki, hazırda Qarabağ danışıqlarının motivində Azərbaycanın ərazilərinin qaytarılması qarşılığında Ermənistanın iqtisadi inkişafı dayanır. Əgər bu günədək əsas şərtlərdən biri Dağlıq Qarabağın statusu idisə, indi iqtisadi amil onu üstələyir. ABŞ, Rusiya və digər dövlətlər Ermənistanın iqtisadi xilasının yolunun Azərbaycan və Türkiyə ilə əlaqələrin normallaşmasından keçdiyini İrəvana açıq şəkildə bildirirlər. Erməni politoloq Məlik Şahnazaryan da bu xüsusda vurğulayır ki, Azərbaycan Qarabağ məsələsində beynəlxalq aləmlə işbirliyində mühüm nailiyyətlərə imza atdığı halda, Ermənistanda əks proses deydə alınır: "Hətta son aylarda Rusiyadan daha çox yaxın saydığımız ABŞ belə bu məsələdə Azərbaycana daha yaxın mövqe nümayiş etdirir. Nikol Paşinyan artıq bir ilə yaxındır baş nazir olub, amma ABŞ rəhbəri ilə görüş təşkil edilməsi mümkün olmayıb. Baş nazirin müavini ABŞ-a səfər edir, heç bir ciddi məmur onu qəbul etmir. Ermənistanın avropalı həmkarları üçün də maraqsız olub. Son zamanlar sürətlə inkişaf edən işgüzar əlaqələr qəflətən dayandırıldı. Qonşu İranla da ciddi əlaqələr yoxdur. Ermənistanın xarici siyasəti ilk növbədə baş nazirin ucbatından uğursuzluğa düçar olub. Bu hal Qarabağ məsələsində də bizim mövqeyimizi əsaslı surətdə zəifledir. Dağlıq Qarabağ məsələsində dünya daha çox Azərbaycanın mövqeyini dəstəkləyir".

Münaqişə ilə bağlı erməni cəmiyyətində anlaşılmazlığın hökm sürdüyünü vurğulayan Şahnazaryan qeyd edib ki, ölkədə bu xüsusda müəyyən gərginlik də var. O hesab edir ki, hakimiyyət nümayəndələrinin səsləndirdiyi fikirlər çox vaxt bir-birini təkzib etdiyinə görə, Qarabağda danışıqlar prosesində nə baş verdiyindən bixəbər olduqlarını deməyə əsas verir. Məsələn, eyni görüş barədə xarici işlər naziri Zöhrab Mnatsakanyan bir söz deyir, Paşinyan isə başqa bir söz deyir: "Belə vəziyyətdə ABŞ-ın və digər ölkələrin Azərbaycanı dəstəkləməsi tamamilə məntiqli də sayıla bilər. Con Bolton daxil olmaqla, digər ABŞ rəsmilərinin Azərbaycan tərəfi ilə danışıqlarda Qarabağ münaqişəsinin nizamlanması perspektivlərini müzakirə etməsi bundan irəli gəlir. İndi sual yaranır ki, ABŞ nədən Qarabağ məsələsini Ermənistanla deyil, yalnız Azərbaycanla müzakirə etmək istəyir? Bunlar ondan irəli gəlir ki, ABŞ üçün maraq kəsb etməyən ölkəyə çevrilmişik".

Ermənistan Xarici İşlər Nazirliyində də kifayət qədər gerilemə olduğunu qeyd edən Şahnazaryan bildirib ki, onun müşahidələrinə görə, baş nazirlə xarici işlər naziri bir-birini yaxşı başa düşmür.

Ermənistanda Avropa Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Artur Qazinyan da eyni mövqedən çıxış edir. O bildirir ki, Azərbaycandan fərqli olaraq, İrəvan həm ABŞ, həm də Rusiya ilə münasibətlərini xeyli pisləşdirə bilib: "Xüsusən də Suriyaya hərbçilər göndərməyimiz bizim əleyhimizə olan hala çevrildi. Bu hal Suriyaya hərbi heyət göndərilməsindən daha çox, yeni hakimiyyətin ABŞ tərəfinə verdiyi vədlərdən yayınmasına yönəldi". O qeyd edir ki, ABŞ səfirliyi Ermənistan hakimiyyətinin Suriyaya erməni hərbi heyətinin göndərilməsi barədə qərarına və faktına ciddi reaksiya verib: "ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Con Bolton Ermənistana etdiyi səfəri çərçivəsində Paşinyan bu qərarı onlara təqdim etsə də, dəstək almayıb. Bu tənqidlər Suriyaya hərbi heyət göndərilməsindən daha çox, yeni hakimiyyətin ABŞ tərəfinə verdiyi vədlərdən yayınmasına yönəlib. Paşinyanın, konkret olaraq, ABŞ tərəfinə hansı vədləri verdiyini demək çətindir. Lakin son ayda baş verənləri və kəskin dönüş hallarını təhlil edərək, bu vədlərin olduqca ciddi olduğunu ehtimal etmək olar. ABŞ tərəfi verilən vədlərin icrasına olduqca davamlı nəzarət edəcək. ABŞ səfirliyinin kəskin reaksiya verməsi Paşinyanın fevral ayının sonu İrana planlaşdırılan səfəri və Qarabağ münaqişəsi məsələsində "sülh müqabilində ərazilər" prinsipindən imtina etməsi ilə bağlı ola bilər.

Qarabağ məsələsində Ermənistanın yeni hakimiyyətinin toxtaqlığı Davos görüşündən sonra baş verib. Çünki bu görüş baş tutmazdan əvvəl Əliyevlə Paşinyan arasında 2, Məmmədyarovla Mnatsakayan arasında keçirilən 4 görüşdən sonra Azərbaycan tərəfi həddindən artıq optimist yanaşma nümayiş etdirirdi. İndi Paşinyanın addımları sayəsində ABŞ, Rusiya kimi ölkələr də Azərbaycana daha çox dəstək verirlər. Bunlar Azərbaycan xarici siyasəti ilə bizim xarici siyasət arasında olan fərqin ən yaxşı göstəricisidir. Bakı nümunə ola biləcək uğurlu gedişlər edir".

Həqiqətən də Azərbaycanın xarici siyasət kursunun uğurları Qarabağ məsələsində İrəvanın mövqelərini sürətlə sarsıdır. Qarabağ münaqişəsinin beynəlxalq hüquqa uyğun, ədalətli həlli və Ermənistan tərəfindən işğal edilən ərazilərin qeydşərtsiz azad edilməsi istiqamətində ölkəmizin mövqeyini dəstəkləyənlərin sayı artır. Məhz Azərbaycanın siyasi iradəsinin diktəsi ilə Ermənistan tərəfi yenidən indiyə qədər olan formatda danışıqlar masasına qayıtmağa məcbur oldu. Eyni zamanda, yuxarıda qeyd olunduğu kimi, Ermənistana qarşı beynəlxalq tənqid və təzyiqlərin də artması aşkar müşahidə edilir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin irəli sürdüyü təşəbbüslərdə də Azərbaycanın haqlı mövqeyi, yəni ərazi bütövlüyünün təmin edilməsi şərti ön planda yer alır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Siyasi analitiklər hesab edirlər ki, baş verən hadisələr Azərbaycanın Dağlıq Qarabağla bağlı siyasətini daha da gücləndirib və real sonluğa bir az da yaxınlaşdırıb. Bundan narahat olan ermənilər isə günahı yeni erməni iqtidarında axtarırlar.

Məsələn, Qarabağ məsələsinə görə Ermənistanda "Daşnaksütyun" partiyası ilə baş nazir Nikol Paşinyan arasında qarşıdurma güclənir. "Daşnaksütyun" Paşinyanı ölkənin müdafiə və təhlükəsizlik problemləri ilə məşğul olmamaqda, xüsusən Dağlıq Qarabağ münaqişəsi ilə yetərincə maraqlanmamaqda ittiham edib. Partiyanın xüsusi komissiyasının əlaqələndiricisi və sabiq iqtisadi inkişaf naziri Artsvik Minasyan bu fonda keçirdiyi mətbuat konfransında yeni hökumətin apardığı daxili və xarici siyasəti sərt tənqid edib. Minasyan baş naziri keçmiş prezident Levon Ter-Petrosyanın siyasi xəttinin davamçısı adlandırıb. Onun sözlərinə görə, Qarabağ problemi həll olunmadan Ermənistanın iqtisadi inkişafı mümkün olmayacaq və bu səbəbdən Paşinyan Qarabağ məsələsində Azərbaycanın istəklərinə baş əyir.

Xatırladaq ki, daha əvvəl eyni mövqedən Respublika partiyasının üzvü, erməni parlamentinin sabiq sədr müavini Eduard Şarmazanov da çıxış edib: "Ermənistanın baş naziri Nikol Paşinyan dövlətin qarşısında duran, eləcə də Qarabağ məsələsində olan çağırışlara tab gətirməyə qadir deyil, belə davam etdiyi halda yeganə çıxış yolu N.Paşinyanın istefasıdır. Azərbaycan müharibəyə hazırlaşır, Nikolun hakimiyyəti isə rəqiblərinə qarşı fəaliyyəti gücləndirir. Paşinyan cəmiyyəti inqilabçılar və əks-inqilabçılar deyə ayırır. Dövlət maraqlarımıza zərbə vuran, əvvəlkilərin hörmətdən salınması ilə bağlı bəyanatlar verir. Bölücü xətlər çəkmək və alternativ fikir dinləməmək, inqilabsayağı hərəkət tərzi bizim dövlətə baha başa gələ bilər. Hakimiyyət, həm də dövlət oyuncaq deyil ki, necə istəyirsən elə də sürəsən".

İndilikdə isə real mənzərə bundan ibarətdir ki, dünya ictimaiyyəti Qarabağ məsələsində Azərbaycanın mövqeyini dəstəkləyərək İrəvana qarşı təzyiqləri artırır. Dünyada o da xüsusi diqqət mərkəzində yer alır ki, Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi və Ermənistan silahlı qüvvələrinin ölkəmizin işğal olunmuş ərazilərində mövcudluğu təkcə Azərbaycanın yox, bütünlükdə regionun sülh və təhlükəsizliyi üçün ən ciddi təhdiddir. Bunu nəzərə alan dünya ictimaiyyəti məsələnin beynəlxalq hüquq normaları çərçivəsində həllinin sürətlənməsini istəyir. Buna görədir ki, bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycan ərazilərinin ayrılmaz bir hissəsi kimi tanıyır və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəkləyir.

Bakı isə belə hesab edir ki, münaqişənin həlli üçün danışıqlar prosesinin resursları tükənməyib. Azərbaycan onu da bəyan edir ki, münaqişənin həlli regional əməkdaşlığın tam şəkildə formalaşmasına, regionda davamlı sülh və təhlükəsizliyin təmin olunmasına xidmət edə bilər. Burada həm də Ermənistan əhalisi özü regionda yaranacaq əməkdaşlıq imkanlarından faydalana biləcək. Sadəcə, bunun üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrində təsbit olunduğu kimi, işğal faktına son qoyulmalı və Ermənistan qoşunları işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalı, azərbaycanlı məcburi köçkünlərin geri qayıtması təmin olunmalıdır. Bu reallıq fonunda Ermənistan rəhbərliyi artıq qəbul etməlidir ki, güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdləri qəbuledilməzdir. Məhz Azərbaycanın diplomatik gedişləri dünya ictimaiyyətinin də məsələyə belə prizmadan yanaşmasına səbəb olub.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**



## Ceyhun Bayramov tələbə kreditlərinin daha təkmil mexanizminin zəruriliyini maraqlı arqumentlərlə əsaslandırdı

**Azərbaycanda yeni tələbə kredit sisteminin yaradılması ilə bağlı sənəd layihəsi yaxın zamanlarda hökumətə təqdim ediləcək. "Trend"in məlumatına görə, bunu təhsil naziri Ceyhun Bayramov deyib.**

2015-ci ildən Azərbaycanda "Maarifçi" Tələbə Kredit Fondunun yaradıldığını deyən C.Bayramov əlavə edib ki, hazırda fond bir neçə ali məktəbin təsisçiliyi ilə fəaliyyət göstərir.

Lakin nazir hesab edir ki, yalnız ali məktəblərin daxili potensialları hesabına bütün ölkədə bu ehtiyacı ödəmək mümkün deyil: "Tələbələr üçün uzunmüddətli kredit sistemi qurulmalıdır və bunun üçün hərtərəfli işlənmiş qanunvericilik bazası hazırlanmalıdır. Tələbə kreditləri digər kreditlərdən fərqli şəkildə verilməlidir. Onlar daha uzunmüddətli olmalıdırlar. Həmin sistemin qurulması ilə bağlı beynəlxalq təcrübə göstərir ki, dövlətin dəstəyi hər zaman bu sistemin üzərində olur. Bununla bağlı aidiyyəti dövlət qurumlarının iştirakı ilə yaradılan işçi qrup çox sürətlə işləyir. Hesab edirəm ki, yekun layihə yaxın zamanlarda hökumətə təqdim ediləcək. Düşünürük ki, 2019-2020-ci tədris ilində Azərbaycanda artıq işlək tələbə kredit sistemini yaratmaq mümkün olacaq".

2015-ci ildən bəri tələbələrə 220-dən çox təhsil kreditinin verildiyini söyləyən C.Bayramov əlavə edib ki, bu sahədə əldə edilən təcrübə çox müsbət bir platforma rolunu oynayıb.

Xatırladaq ki, maliyyə naziri Samir Şərifov 2019-cu ilin dövlət büdcəsinin layihəsi müzakirə edilərkən təhsil kreditlərinin qaytarılıb-qaytarılmayacağı ilə bağlı problemin olduğunu açıqlamışdı: "Təhsil krediti alanların onu qaytaracağı böyük sualdır. Bizim bank təşkilatlarımız bu riski öz üzərlərinə götürmək istəmirlər. Dövlət buna müdaxilə etsə, indidən etiraf edək ki, bu kreditlər qaytarılmayacaq. Xaricdə bu məsələ belə qurulub - kredit verilir, amma həmin o məzunlar işə qəbul olunduqdan sonra işəgötürənlər banklarla müqavilə bağlayır və kreditlər geri qaytarılır. Hazırda bununla bağlı bir mexanizm tapa bilməmişik. Müəyyən cəhdlər var. Lakin bunlar, deməzdim ki, problemi kütləvi şəkildə həll edəcək".

Təhsil naziri Ceyhun Bayramovun tapşırığına əsasən, "Maarifçi" Tələbə Kredit Fondu kredit borclarının qaytarılması ilə bağlı beynəlxalq təcrübədə olan alternativ mexanizmlər üzərində işləyir.

**Dünyanın inkişaf etmiş ölkələrində uçot dərəcəsi bir neçə bənd dəyişdirilərsə, bu hal ilk növbədə kredit faizlərinin aşağı salınmasına təsir edir. Məlumdur ki, bir neçə dəfə Mərkəzi Bank uçot dərəcəsini aşağı salıb. Növbəti belə hal bu ayın əvvəlində yaşandı. Belə ki, fevralın 1-də Mərkəzi Bank tərəfindən uçot faiz dərəcəsi 0,5 bənd azaldılaraq 9,75 faizdən 9,25 faizə endirilib.**

# Banklar Elman Rüstəmovun dərəcə azaltmaq kursundan nəticə çıxarmadı, "tərslik" nə vaxtadək davam edəcək...

***Rəşad Həsənov:** "Mərkəzi Bankın uçot dərəcəsini aşağı salmasına baxmayaraq, banklar hələ də kredit faizlərini yüksək saxlamaqda davam edir"*

Bank rəsmilərinin açıqlamalarına görə, bunda məqsəd biznes kreditlərinin daha da əlçatanlığına nail olmaqdır. Bu isə o deməkdir ki, həmin addıma adekvat olaraq banklar da kredit faizlərini aşağı salmalıdırlar. Ancaq bu günə qədər Mərkəzi Bank dəfələrlə həmin istiqamətdə addım atsa da, banklar tərəfindən sözügedən istiqamətdə bir irəliləyiş gözə dəyməyib. İndiki halda, kommersiya bankları əvvəlki mövqelərində qalmaqda davam edirlər.

Uçot dərəcəsinin azalmasına baxmayaraq, banklar kredit faizini aşağı salmırlar. **Bunun səbəbini öyrənmək üçün iqtisadçı-ekspert Rəşad Həsənova müraciət etdik.** O bizimlə söhbətində qeyd etdi ki, problem mərkəzləşdirilmiş kreditlərin bankların aktivindəki həcminin kifayət qədər aşağı həddə olmasından və bazarda rəqabətin zəifliyindən qaynaqlanır: "Mərkəzi Bankın uçot dərəcəsini aşağı salmasına baxmayaraq, bankların kredit faizlərini yüksək saxlamaqda davam etməsi mövzusunda dəfələrlə fikir bildirmişik. Məsələ ondadır ki, Mərkəzi Bankın, faktiki olaraq, mərkəzləşdirilmiş kreditlərinin bankların kapitalındakı aktiv payları kifayət qədər aşağıdır. Mərkəzi Bank rəhbəri E.Rüstəmovun özünün açıqladığı rəqəmə görə, banklara həmin qurum tərəfindən cəmi 400 milyon manat civarında kredit verilib. Bu da kifayət qədər kiçik rəqəmdir. Bazarda bankların təxminən 12-13 milyard manat arasında kreditinin olduğunu nəzərə alsaq, 400 milyon kifayət qədər kiçik rəqəmdir. Ona görə də Mərkəzi Bankın banklara satdığı pulun faiz dərəcəsinin aşağı endirilməsinin, birbaşa olaraq, bazarlarda kreditlər üzrə faizlərə təsiri mümkünsüz olur. Əsas problem də məhz buradan qaynaqlanır. İkinci bir tərəfdən, prosesə bazarda mövcud olan tələb-təklif məsələsi də öz təsirini göstərir. Bu gün, faktiki olaraq, kreditləşmə kifayət qədər mürəkkəbləşib. Banklar bu istiqamətdə daha səbrli və passiv siyasət həyata keçirirlər. Bunun da nəticəsində mövcud şərtlər daxilində hazırda tələb təklifdən yuxarıdır. Baxmayaraq ki, banklar hələlik vəsaitləri bazarda tam olaraq yerləşdirə bilmirlər, amma bu da onların kredit siyasətilə bağlıdır, daha sağlam müştərilərlə çalışmaq cəhdindən qaynaqlanır. Ona görə də tələbin olmasına baxmayaraq, müəyyən risqlər fonunda bu vəsaitlər, faktiki olaraq, bazarda yerləşdirilmir.




*"Problem məhz mərkəzləşdirilmiş kreditlərin bankların aktivindəki həcminin kifayət qədər aşağı həddindən və bazarda rəqabətin zəif olmasından qaynaqlanır"*

Qeyd etdiyimiz kimi, problem məhz mərkəzləşdirilmiş kreditlərin bankların aktivindəki həcminin kifayət qədər aşağı həddindən və bazarda rəqabətin zəif olmasından qaynaqlanır".

***Günel CƏLİLOVA***

**Xəbər verildiyi kimi, Azərbaycanda əmək pensiyalarının minimum məbləği 116 manatdan 160 manata çatdırılacaq və nəticədə 233 min nəfərin pensiyasında artım olacaq. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev fevralın 14-də keçirdiyi brifinqdə deyib.**




# Minimum pensiya həddinin artırılması minlərlə insanın həyatında özünü göstərəcək

***Aydın Hüseynov:** "Pensiya məbləğinin artırılması hər bir təqaüdçünün sosial rifahının yüksəlməsi deməkdir"*

***Müslüm İbrahimov:** "Pensiyaçıların istehlak səbətində olan məhsulların həcmi artacaq"*

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi hazırlanaraq Milli Məclisə təqdim olunub: "Minimum pensiya məbləğinin artırılması, ümumilikdə, 233 min pensiyaçını (o cümlədən, 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi) əhatə edəcək. Onlardan 9 min nəfərin pensiyasında 93 faiz (75 manat), 26 min nəfərin pensiyasında 30 faiz (37 manat), 74 min nəfərin pensiyasında 16 faiz (27 manat) və s. artım olacaq. Artımın edilməsi üçün nazirlik yanında Dövlət Sosial Müdafiə Fondundan cari ilin 10 ayı (mart-dekabr) üzrə 41 milyon manat, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək".

**Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Prezident İlham Əliyevin siyasətinin başlıca məqsədi Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəlməsi, onların maraqlarının müdafiə olunmasıdır.** Sosial maraqların təmin olunması birbaşa əməkhaqqı ilə bağlıdır: "Məlumdur ki, ölkə əhalisinin sosial durumunun yüksəlməsi ilə bağlı ardıcıl şəkildə layihələr həyata keçirilir. Minimum əməkhaqqının məbləği 130 manatdan 180 manata yüksəldi. Pensiyanın sığorta məbləği artırıldı. Minimum pensiya məbləği 130 manatdan 160 manata qədər çatdırılacaq. Pensiya məbləğinin artırılması hər bir təqaüdçünün sosial rifahının yüksəlməsi deməkdir".

**İqtisad elmləri doktoru Müslüm İbrahimov qəzetimizə açıqlamasında bildirdi ki, minimum pensiya məbləğinin artırılması əhalinin yaşayış səviyyəsinin artmasına səbəb olacaq:** "Minimum pensiya məbləğinin artırılması dövlət tərəfindən əhalinin sosial vəziyyətinin yaxşılaşması üçün atılan növbəti addımlardan biridir. İlk növbədə bildirim ki, pensiya məbləğinin artırılması istehlak aktivliyinin artırılmasına səbəb olacaq. Pensiyaçıların istehlak səbətində olan məhsulların həcmi artacaq".

Həmsöhbətimizin sözlərinə görə, minimum pensiya məbləğinin 130 manatdan 160 manata çatdırılması əhalinin rifah halının yüksəlməsinə möhkəm zəmin yaradır.

***Günel CƏLİLOVA***

**Son həftələr Azərbaycan Dillər Universiteti (ADU) ilə bağlı müxtəlif qalmaqallı xəbərlər yayılmaqdadır. Səsləndirilən əsas iddialar ADU-da təhsilin keyfiyyətinin aşağı olması, burada təhsil alan tələbələrin dörd il müddətində xarici dilləri mənimsəməməsi, eləcə də universitetin elmi şurasında elmi işlərin 90 faizinin təmənna qarşılığında müdafiə edilməsi ilə bağlıdır.**

# Dillər Universitetindən sabiq dekanın ağır ittihamları belə cavablandırıldı - "gəlin, görün dərslər necə keçir"...

## *Əfqan Abdullayev: "Sizi universitetə dəvət edirəm"*



Filologiya üzrə fəlsəfə doktoru, ADU-nun Filologiya və Jurnalistika fakültəsinin keçmiş dekanı, ADU-nun dosenti və YAP Qadınlar Şurasının sədri Vüsalə Ağabəylinin bu ali məktəbdə tədrisin keyfiyyətinin aşağı olması, burada elmlə məşğul olanlara şərait yaradılmaması ilə bağlı mətbuata verdiyi açıqlama əməllibaşlı qalmaqala səbəb olub. Qeyd edək ki, V.Ağabəyli bu ali məktəbdə baş verənlərlə əlaqədar ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya da müraciət ünvanlayıb.

"Məsələnin ictimailəşdirilməsinə ilk başdan tam qarşı olsam da, mövzudan tam xali olmayan insanların da qoşulması, haqsız münasibət bildirməsi məni cavab verməyə məcbur edir. Bizim istəyimiz ən yüksək səviyyədə tam obyektivliklə vəziyyətin araşdırılması, Azərbaycan Dillər Universitetində rektor Kamal Abdullayevin bir sıra yüksək peşəkar kadrlara münasibətdə yaratdığı dözülməz vəziyyət, xarici dil tədrisinin formalaşmış yaxşı ənənələrinin səriştəsizliklə dağıdılması və təhsilin gələcəyinə törədilən təhlükələrə diqqət yönəldilməsidir. Qurama ittihamlarında şərə, böhtana əsaslanan K.Abdullayevin haqsızlığının əlavə sübutu ondan ibarətdir ki, o bir nəfərə qarşı başladığı qeyri-obyektiv hücumlarında dəstəsini getdikcə böyütməyə çalışır. Əgər doğrudan da haqlı idinizsə, faktlar sizin tərəfinizdədirsə, niyə tabeliyinizdə olan tərəfdarlarınızdan əlavə, bu dəstəyə real vəziyyətdən yetərincə məlumatlı olmayan, özəl münasibətləriniz olan deputatlar qrupunu da qoşmusunuz? Yoxsa deyəcəksiniz onlar mənim əleyhimə çıxışları elə vicdanlarının səsinə qulaq asaraq, ADU-dakı problemləri daim izlədikləri və dərindən bildikləri səbəbindəndir?

Axı bu qədər adamın bir nəfər əleyhinə belə hücumlarını təşkil etməyinizin çürük və asanlıqla ifşa ediləcək bir saxta kampaniya olması məntiqlə düşünən hər kəsə aydındır. Sizə münasibətlərinizdən sui-istifadə edərək bu oyununuza cəlb etdiyiniz hörmətli şəxsləri heç də yaxşı olmayan vəziyyətə gətirməyinizin fərqindəsinizmi? Məsələyə münasibət bildirməyə cəlb edilmiş deputatların Kamal Abdullayevlə yaxın münasibətləri aydındır, lakin bir mühüm məqama diqqəti çəkmək istəyirəm ki, siz axı millətin vəkillərisiniz, sizin əsas vəzifəniz, məncə, dostluq münasibətləriniz öz yerində, haqqı tapdanılan insanlara dəstək olmaqdır. Niyə bu sual sizləri düşündürmür ki, Kamal müəllim haqlıdırsa, niyə 34 yaşlı bir ziyalı xanıma qarşı az qalsın bir batalyonla hücuma keçib?" - deyə o qeyd edib.




O bildirib ki, K.Abdulla bir universitet rəhbəri olaraq, universitetdə sabitliyi bərqərar etmək əvəzinə, onu özü pozur. "Niyə rektor və dekan arasında baş verən kiçik bir mübahisəli məsələni universitetin müəllim-tələbə heyətinə və daha sonra mediaya daşımalı idi ki? Bu da, əslində, onun idarəçiliyinin düzgün olmamasına dəlalət etmirmi? Mənim iş otağımın qapısının qırılaraq açdırılması, açarların dəyişdirilməsi, hələ mən vəzifədə ola-ola xəstə olmağımdan istifadə edərək, yerimə başqa birinin təyin edilməsi bəs necə, rəhbərə yaraşan addımdır?"

V.Ağabəyli ADU rəhbərliyi tərəfindən haqsızlıqla üzləşdiyini deyib.

Qeyd edək ki, mətbuatda ADU-nun "Keyfiyyətə təminat" bölməsinin əməkdaşı Cəmilə Qədirlinin də məlum olmayan səbəbdən işdən çıxarıldığı haqqında məlumatlar yayılıb. Mətbuatın yazdığına görə, səhər işə gələn C.Qədirlini mühafizəçilər binaya buraxmaq istəməyiblər. Yazılana görə, mühafizəçilərin tələbinə məhəl qoymayan xanım əməkdaş 4-cü mərtəbədəki iş otağına qalxıb və burada onun vəziyyəti pisləşib, o hətta huşunu itirib. "Vəziyyət o həddə çatıb ki, binaya təcili tibbi yardım briqadası çağırılıb" - deyə mətbuatda bildirilir.

Həm V.Ağabəyli, həm də C.Qədirli olayının medianın gündəminə çıxması ADU ətrafında müxtəlif söz-söhbətlər, qalmaqallar yaranmasına səbəb olub.

V.Ağabəylinin ADU-ya və onun rəhbərliyinə qarşı irəli sürdüyü iddialar nə dərəcədə əsaslıdır? Doğrudanmı, bu ali məktəbdə təhsil alan tələbələr xarici dil öyrənmədən məzun olurlar?

**ADU-nun tədris işləri üzrə prorektoru, professor Əfqan Abdullayev "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələ ilə bağlı şərh vermək istəmir:** "Mən bu barədə heç bir fikir bildirmək istəmirəm. Qalmaqallara mən münasibət bildirməli deyiləm. O ki, qaldı tədrisin keyfiyyətinin aşağı olması ilə bağlı iddialara, bu haqda da bir söz demək fikrində deyiləm. Sizi universitetə dəvət edirəm, buyurun gəlin, görün burada necə dərs keçilir".

Açıq deyək ki, Dillər Universitetinin adı ictimaiyyət arasında tədrisin şəffaflığı və təmizliyi ilə tanınan universitet kimi çəkilir. Bu halda, sabiq dekanın söylədikləri bizim üçün də maraqlı və təəccüblü oldu. Odur ki, hörmətli prorektorla söhbətimizdə gələn həftə universitetdən oxucularımız üçün geniş bir reportaj hazırlayacağımızı bildirdik.

***İradə SARIYEVA***

# Bakı Mühəndislik Universitetinin müəlliminin mühüm elmi yeniliyi dünya jurnalında təqdim edildi...



**Bakı Mühəndislik Universitetinin kimya mühəndisliyi kafedrasının müdiri Yusif Abdullayevin dünyaca tanınmış "Elsevier" nəşriyyatına aid olan 4,5 impakt faktoru "Journal of Molecular Liquids" jurnalında elmi məqaləsi nəşrə qəbul olunub.**

Azərbaycanlı alim "Experimental and computational study of metal-free Bronsted acidic ionic liquid catalyzed benzylic C(sp3)-H bond activation and C-N, C-C cross couplings" adlı məqaləsilə erməni alimi Andranik Petrosyan və onun tədqiqatçı yoldaşlarının Almaniya universitetlərindən birinin laboratoriyasında apardığı tədqiqatın nəticələrini altüst edib.

Məqalədə BMU-nun alimi çoxəvəzli pirazinlərin sintezində mövcud üsullara alternativ olaraq ekoloji təmiz, atom ekonomik və qısamüddətli metod təklif edir. Bu metoddan istifadə etməklə BMU-nun tədqiqat laboratoriyasında optimallaşdırılma işləri aparılıb və məhsulun çıxımı artırılıb. Ağır və bahalı metal katalizatorunun alternativi kimi ucuz ion mayesi katalizatoru işlətməklə qısa müddətə solvent istifadə etmədən çoxəvəzli pirazinlərin alınması elmi yenilikdir.

Əslən erməni olan A. Petrosyan və onun tədqiqatçı yoldaşları aşağı impakt faktorlu "Tetraheron Vol" jurnalında nəşr etdiyi məqaləsində pirazinlərin alınmasına çoxmərhələli və çox bahalı katalizatorlardan istifadə edərək 18 saat sərf etdiyi halda, Yusif Abdullayevin tədqiqatında bu proses 1 saata başa çatıb.

Nəticədə, eyni məhsulun alınması istqamətində aparılan iki elmi tədqiqatı müqayisə etdikdə azərbaycanlı alimlərin universitetin tədris laboratoriyasında apardığı tədqiqat qabiliyyətinin, təklif olunan qısa və səmərəli üsulun üstünlüyü açıq-aşkar görünür.

Qeyd edək ki, pirazinlər və onların törəmələri tibbdə böyük əhəmiyyət kəsb edir. Bunlar bioloji aktivliyə malikdir, az toksik maddələr olduğu üçün farmakofor kimi istifadə edilir.

***Baki-xeber.com***

**Kütləvi informasiya vasitələrində dilin mədəniyyətlə qarşılıqlı əlaqəsini təhlil etməzdən öncə onların birmənalı qarşılanmayan məzmunu ilə mahiyyətinə diqqət yetirmək lazımdır. Bu mənada KİV-in dilindən çox, ədəbi dilimizdən nə dərəcədə istifadə etməyimizin qayğısına qalaq. Çünki KİV-in dili bədii dilin tərkib hissəsi, geniş mənada isə mədəniyyətin bir qoludur.**

# Media məkanında dil və mədəniyyət...

*"Dilini tərbiyə etməzdən öncə qəlbini tərbiyə et"*

***Cəlaləddin Rumi***



**Şəmsəddin ƏLİYEV**
*Azərbaycan Mətbuat Şurasının icraçı katibi*

Hər birimiz ana dilimizdə necə danışırıqsa, elə də varıq desəm, yanılmıram. Ana dili bizi mədəniyyətə və sivilizasiyaya aparan, bizə bələdçilik edən fenomendir. Tərəddüdə qapılmadan demək olar ki, ana dilimiz zəngin xəzinəmiz, ulularımızın adı ilə bağlı olan ləyaqətimizdir.

Döyüşçü silaha nə dərəcədə güvənirsə, ədəbiyyatçı, jurnalist, media məkanında çalışan hər bir əməkdaş da bədii arsenalı olan ana dilinə güvənməli, onunla "döyüşməyi" bacarmalı, təhqir və ləyaqəti alçaltmaqdan, böhtandan uzaq durmalıdır. İnformasiya mənbəyi həm media nümayəndəsi üçün, həm də oxucu kütləsi üçün durulan suyun dibindəki daşlar qədər aydın görsənməlidir. Dilini mükəmməl bilən media əməkdaşı tənqidi təhqirdən rahat ayırmağı bacarır. Cümləni qurmaqla fikrini tamamlayıb oxuculara çatdıra bilirsə, deməli, dili də bilir. Bu, bir növ jurnalist texnikasına yiyələnmək və ondan məharətlə istifadə edə bilməkdir. Jurnalistin fəaliyyətinə, xəbər portalına qiymət vermək üçün isə heç bir monitorinq keçirmədən bircə yazını oxumaq kifayət edir.Taftalogiya (ritorik fiqur, məntiqi mənada isə buraxılan səhvin son halı, eyni fikrin təkrarı) eyni və ziddiyyətli məlumatlar olduqda müəllifin cəmiyyətə nə demək istədiyi anlaşılmır. Tarixən dili bilənin dünyası geniş olur deyirlər. Mücərrəd ideologiyası olan informasiya portalı nümayəndəsinin yazılarını anlamaq oxucu üçün çox çətin olur, bəzən də cəmiyyətdə çaşqınlıq yaradır. Zənnimcə, "Mən"dünyaya nisbətdə necədirsə, dil də jurnalistlə cəmiyyətə nisbətdə dəyişən media mühitidir. Dil bəzən də jurnalistin ustalıqla istifadə və qət etdiyi labirintli-dolanbaclı bir yoldur. Səmərəli və orfoqrafiyaya uyğun istifadə edilmədikdə maraqlar toqquşur. Səhih mənbələrə söykənməyən mətnlərin qurbanları (informasiya qurbanları) isə tədbir görülməsi üçün ya Mətbuat Şurasına, ya da məhkəmələrə müraciət etməyə məcbur olur.

Böyük Cəlaləddin Ruminin sözləri ilə ifadə etsəm,"Dilini tərbiyə etməzdən öncə qəlbini tərbiyə et. Çünki hər qələmə alınan və dillə ifadə olunan söz ürəkdən gəlir". Cəmiyyətin hər bir üzvünə yönələn təhqiramiz və ləyaqəti alçaldan ifadələr tərbiyə olunmayan qəlbin məhsuludur. Belə olmaz!

Tarixən dil insan kollektivinin əsas ünsiyyət vasitəsi kimi işarələr sistemi, təfəkkürün inkişaf vasitəsi və nəsildən-nəslə ötürülən xalqın mədəni tarixi ilə vəhdət təşkil edib. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Rəsul Rza ana dilimizin inkişafı ilə bağlı mülahizələrinin birində demişdi: "Metal alət işlədilməsə paslanar. Dil də işlədilməsə, get-gedə kəsərini, məna dəqiqliyini və dərinliyini, ifadə incəliyini və gözəlliyini itirər, inkişafdan qalar."

Son zamanlar demokratik Azərbaycanın media məkanında informasiya agentlikləri və xəbər saytları yağmurdan sonra artan göbələklər qədərdir. Qoy olsun. Ölkədə məlumat azadlığı var. Amma hər bir xəbər məkanı ana dilinə uyğun ad tapmalıdır. Əcnəbi dilindəki belə məlumat məkanları mədəniyyətimizə zidd və milli ruhumuzla uzlaşmır. Məs: "Open.az", "Report.az" və sonu ".az"-la bitən dilimizə yad o qədər xəbər portalı var ki, faktiki olaraq və hüquqi baxımdan fəaliyyətlərinə nəzarət etmək də çətindir. Bunlara sahiblik və "dur"deyə bilən, vətəndaş cəmiyyətinin ruhunu oxşayan bir qanun olmalıdır.Yəqin ki, olacaq.

Başqa lüğətlərə istinad etsək, mədəniyyət insan cəmiyyətinin istehsalatda, ictimai və mənəvi həyatda nailiyyətlərin məcmusu kimi müəyyənləşir və zamana görə konkretləşir. Bəzi alimlər mədəniyyəti təsəvvür edilən münasibətlər və dəyərlər kodeksinin mürəkkəb kompleksi kimi qəbul edir. İnsan, harada doğulub boya-başa çatmasına və harada olmasına baxmayaraq, düşüncəsinin dərinliyinə qədər etika, siyasət, din və incəsənətə, sadə anlamda isə tərbiyəyə, etik və siyasi davranışları ilə mədəniyyətə köklənməlidir.

Klifford Gekts (Amerikan antropoloqu və sosioloqu) mədəniyyəti müəyyən edərkən yazmışdı:" Bu, tarixən ötürülən əhəmiyyətli model, təsəvvürlərin varisəlik sistemidir ki, ildənilə və nəsildən-nəslə ötürülür, bunun əsasında insanların həyat haqda bilgiləri inkişaf edir, bir-birilə ünsiyyətdə olurlar".

Beləliklə, linqvistik terminoloji lüğətdə ayrıca mədəniyyət termini yoxdur (Nitq mədəniyyəti, danışıq mədəniyyəti var). Ona görə də mədəniyyətlə dil müstəqil olsalar da, bir-birinin təməlini təşkil edirlər. Biz yuxarıda qeyd etdik ki, mədəniyyət dil vasitəsilə müəyyən edilir. Bütün hallarda, dilin iştirakı olmadan mədəniyyətin anlayışını açmaq mümkünsüz və sadəlövhlükdür. Bu o deməkdir ki, dil mədəniyyət anlayışına daxildir və orada özünəxas "özəlləşmiş" yeri var.

Yenə ötən illərdən qalan dəfinə dəyərli bir iqtibas gətirirəm.1939-cu ildə Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri Rəsul Rza Sovet İttifaqının təşkil etdiyi dil müşavirəsindəki çıxışında demişdi: "Aydındır ki, dilin zənginliyi sözün çoxluğu ilə ölçülmür. Şüurun əsas elementi olan dil ictimai dəyişikliklər, tarixi inkişaf nəticəsində şüurun özü kimi dəyişir və inkişaf edir. Böyük Fransa inqilabı zamanında fransız dili o qədər dəyişmişdi ki, Napaleon Bonapart və ondan sonra gələn Fransa padşahları da dilin köhnə aristokrat qayda və çərçivələrinə qayıtması üçün xüsusi qanunlar verməyə məcbur olmuşdular. Lakin canlı həyatı əks etdirən dil geri qayıtmadı. Pol Lafarq (görkəmli siyasi xadim, fransız iqtisadçısı, ölkəyə marksizmi gətirən mütəfəkkir) yazırdı ki, XVIII əsrin yazıçıları ölən dilin yatağı qarşısında bir şəfqət bacısı kimi oturub akademik qərarların köməyilə bu xəstənin ömrünü uzatmaq istəyirdilər", lakin alınmadı. Rəvayət edirlər ki, fransız dilində əmələ gəlmiş yeni sözlər və yeni ifadələr o qədər çox və qəliz idi ki, XIV Lüdovikin saray adamlarına bu dili anlatmaq üçün o dövrün qəzet və kitablarını təmiz fransız dilinə tərcümə etmək lazım gəlirmiş...Daha sonra unudulmaz xalq şairimiz Rəsul Rza ana dili haqqında fikirlərini davam etdirir:...Biz ərəb, fars, osmanlı dillərinin təsiri ilə mübarizə deyəndə, o illərin vaxtilə dilimizə soxulmuş ruhu ilə mübarizə məsələsindən danışırıq...Xalqımıza yad olan, xalq tərəfindən mənimsənməmiş, xalqın dilinə girməmiş, dilimizin ruhuna uymamış sözlərin və ifadələrin dildən qovulmasından danışırıq..." Amma çox təəssüf ki, bu işdə solçuluq edənlər və mahiyyətini anlamayanlar o dövrdə də olub, bu gün də var.

Azərbaycanın media məkanına diqqət yetirdikdə ya təkrarçılıq baş alıb gedir, ya da hakimiyyətin budaqlarında çalışan yüksək çinli bəzi məmurlara qarşı sanki savaşa meydan açılır. Təbii, ölkə Prezidenti vəzifə və səlahiyyətlərindən sui-istifadə edən məmurlar barədə hər zaman məlumatın verilməsini zəruri sayır. Lakin yanaşma yalan, böhtan xarakterli və qərəzli olmamalıdır.

Sui-istifadə ilə bağlı faktlar real və səhih mənbələrə istinadən verilmirsə və qarşı tərəfin də münasibətlərinə yer ayrılmırsa, bu, dezinformasiyadır, bilərəkdən yanlış, səhv informasiya verməkdir və böhtandan başqa bir şey deyil. Məqsəd isə cəmiyyətdə çaşqınlıq yaratmaqdır. Hələ yazılı təhqirləri və ləyaqətin alçaldılmasını demirəm. Məsələn, yazırlar ki, "İcra başçısı Prezidentə yalan məlumat verdi...."mətnin məzmununda isə təsdiqləyici heç nə yoxdur. Belə yazıq görkəmdə olan xəbər portallarının nümayəndələrinin düşüncəsinə görə Administrasiyanın icra məmurlarının fəaliyyətləri barədə məlumatları seyrəkdir.(?) Çox təəssüf!

Mən əldə edilən səhih, etibarlı mənbələrdən alınan məlumatların konservasiyasının əleyhinəyəm. Məlumatların həqiqiliyi şübhə doğurmursa və qarşı tərəfin də mülahizələrinə yer ayrılmışsa, belə məlumatlar dərc edilməlidir. Mediada hamı "bakirə" məlumatları yaymağa çalışır. Burada da bir rəqabət var. Sensasiyalı məlumatı ilk olaraq kim yayacaq?"Yarış" belə başlayır...Bu yarışda bəs uduzan kim, udan kim?!

Elə özəl saytlar var ki, nə gəldi yazır, hətta fahişəlik təşviq olunur. İnformasiya qurbanlarını hədsiz aşağılayan mətnlər bəzən ailələrin dağılması ilə nəticələnir. Həyat intiharla üz-üzə qalır ac qurdlar kimi... Məs: "Sinif müəlliməsi şagirdindən hamilədir!(?)" Həyasızlığın və məlumat azadlığının ifrat dərəcəsinə diqqət edin, şərə, ləkəyə və böhtana baxın! Və yaxud, ailəli rəfiqələrin "eyni cinsdən olanların sevgisindən" yazmaqla ağır cinayətlərin törədilməsinə şərait yaradılır... Belə məlumat azadlığı olmaz. Bəs, mənəvi dəyərlərimiz necə qorunmalıdır?! Konstitusiya söz və fikir azadlığını belə diqtə etmir. Ehtiyatlı və ətrafın hüquqlarına hörmətlə yanaşmaq hər birimizin vəzifəsidir. Bəzən xəbər portalları ilə tanış olduqdan sonra belə təsəvvür yaranır ki, "Yəqin sözlər dəyərini itirib". Əslində söz yox, insan dəyərsizləşib. Söz nə qədər ki deyilmir, sahibinin köləsi və ondan asılı olur. Müxbir öz dəyərini etik davranışları ilə təsdiqləyə bilmirsə, ondan qiymətli söz gözləməyə də dəyməz. Belə gedərsə ana-dövlət dilimizin bəkarətini də qoruya bilmərik! Təbii,Mətbuat Şurası oxşar şikayətlərin müzakirəsi zamanı prinsipal mövqe tutur, ictimai mənəviyyatın qorunmasına çalışır...

Bəzən zərrə qədər "zəhəri" olan sözü zarafatla da söyləmək mümkün olmadıqda, belə yazıları saytlarda oxuyur və "ah" çəkirik.Nə etmək? Media məkanı ilə cəmiyyət və hakimiyyətin budaqları arasında münasibətləri tənzimləyən təkmil bir normativ hüquqi akt qəbul olunmalıdır. Hər bir xəbər portalı media meydanına vəsiqə almaq istəyirsə, rəsmi qeydiyyata alınmalı, jurnalist fəhmi, bədii bacarığı və qabiliyyəti, peşə hazırlığı, şəxsi keyfiyyətləri, dil biliyinin səviyyəsi, hətta dünyagörüşü barədə sınağa çəkilməlidir. Belə yanaşma dilimizə və mədəniyyətimizə olan məsuliyyətin canlı təzahürü kimi xoş ovqatla qarşılanardı. Zənnimcə çox gecikirik, çox! Demokratiyadan və məlumat azadlığından hədsiz suiistifadə edilir. Sonu olmalıdır. Bu günə qədər olanlara "amnistiya"elan olunsun. Mən heç bir qələm sahibinin cəmiyyətdən təcrid olunmasının tərəfdarı deyiləm. Hər biri cəmiyyətin üzvü, ailənin başçısı, bir kollektivin ayrılmaz hissəsi, ən başlıcası isə dövlətlə siyasi və hüquqi bağlılığı olan vətəndaşıdır. Onların haqq yoldan azmasına imkan verməməliyik. Onlar bizimdirlər.

Paradoksal haldır ki, dil mədəniyyətin anlayışına daxil olmaqla, həm də onunla fəal əlaqədə olur. Belə qarşılıqlı əlaqənin iki magistral istiqamətini qeyd etmək istərdim:

- Mədəniyyətin tərkib hissəsi kimi dil onun inkişafını şərtləndirir:
- Dil mədəniyyətin müstəqil substansiyası(Bütün əşya və hadisələrin ilkin əsası,mahiyyəti) olmaqla mədəniyyətlə fəal qarşılıqlı əlaqədə olur, onun xarakterinə və spesifikasına təsir edir, bir birini tamamlayırlar.

*(Ardı 13-cü səh.)*

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

(Əvvəli ötən saylarımızda)

**AĞAYEV ŞAHLAR HÜSEYNAĞA oğlu**



12 noyabr 1973-cü ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Xaçmaz rayonunun Vasilyevka (indi Ağçay) kəndində yaşamışdır. Xaçmaz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağayev Şahlar Hüseynağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 19 iyul 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Şahlar Hüseynağa oğlu 19 iyul 1992-ci ildə Ağdərə rayonunun Aterk (indi Həsənriz) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürülmüşdür.

Ağayev Şahlar Hüseynağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAYEV ŞAMİL FƏRMAN oğlu**



7 sentyabr 1972-ci ildə Azərbaycan Respublikasının Lənkəran rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Lənkəran rayonunun Boladi kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Ağayev Şamil Fərman oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 19 oktyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Şamil Fərman oğlu 19 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Güləbird kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Ağayev Şamil Fərman oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAYEV TƏYYAR ƏZİZAĞA oğlu**



11 fevral 1966-cı ildə Azərbaycan Respublikası Cəlilabad rayonunun Fətullaqışlaq kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Cəlilabad rayonunun Göytəpə qəsəbəsində (indi şəhər) yaşamışdır. Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağayev Təyyar Əzizağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 15 may 1992-ci ildə Şuşa rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Təyyar Əzizağa oğlu 15 may 1992-ci il tarixində Şuşa rayonunun Zarıslı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürülmüşdür.

Ağayev Təyyar Əzizağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AĞAYEV VİDADİ ORUCƏLİ oğlu**



15 yanvar 1962-ci ildə Azərbaycan Respublikasının Cəlilabad rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Cəlilabad rayonunun Svetlaya Zarya (indi Kazımabad) kəndində yaşamışdır. Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Ağayev Vidadi Orucəli oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 7 may 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Ağayev Vidadi Orucəli oğlu 7 may 1994-cü il tarixində Tərtər rayonu ərazisində 3-cü sovxoz adlanan yerdə erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Ağayev Vidadi Orucəli oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

(Ardı növbəti sayımızda)

---

(Əvvəli 12-ci səh.)

Dil mədəniyyətlə bir yerdə mənimsənilir (qavranılır). Dil həm də mədəniyyətin inkişafına imkan yaradır, onun formalaşmasında iştirak edir, xarakterini cilalayır, istənilən danışıqda mədəniyyətin xüsusi funksiyasını yerinə yetirir və qoruyur.

Ədəbiyyat və məlumat üçün dil təkcə fikirlərin ifadə vasitəsi deyil, mövcudluq üsulu, estetik, bədii və spesifik təsir vasitəsi kimi əhəmiyyət daşıyır. Dil həm də ədəbiyatın,istənilən mətnin dayağıdır. Bir-birini dəyişən ədəbi axının - klassizmin, sentimentalizmin,(əxlaqi həyatın ölçüsü olaraq duyğunu əhatə edən təlimlərin ümumi adı. Ədəbi termin kimi ilk dəfə 1868-ci ildə İngiltərədə istifadə edilmiş,fransızca hiss,duyğu mənasını verir) romantizmin və realizmin estetik istiqamətində ifadə olunur. Nəsrdə, lirikada yalnız dil komandanlıq və dominantlıq edir. Dil, mən deyərdim ki, müəlliflə bərabər, həmmmüəllifdir. İstənilən yazının kökü dilə söykənir. Müəllifin fikrini diktə və ifadə edə bilən başqa vasitə yoxdur.

Müasir Azərbaycan Respublikasının xəbər portallarında geniş oxucu kütləsinə çatdırılan informasiyalar ilk növbədə redaksiya heyətinin ədəbi bacarığını,milli ideologiyanın və dilin nə dərəcədə mənimsənilməsini cəmiyyətə çatdırır. Jarqon, vulqar ifadələr, səviyyəsiz yazılar, ictimai mənəviyyata zidd halların təbliği, yerli-yersiz məmurların ünvanlarına utanc gətirən ifadələr,məs:"iri buynuzlu məmurlar" ifadələri,(bax. Demokratik az.)Prezidentin vəzifəyə təyin etdiyi və səlahiyyətlərinə xitam verdiyi yüksək çinli vəzifəli şəxslər barədə "sensasiya" xarakterli məlumatlar cəmiyyətimizin, daha çox KİV məkanının və jurnalistin faciəsidir.Əslində belə əyri qələm sahibləri dövlət qulluqçularını qəsdən təhqir edir,onların nüfuzlarını vətəndaşlar arasında aşağılayır,onlara etibarı azaltmaqla lağ obyektinə çevirirlər. Bu gün jurnalistikada gömrükçü ixtisası ilə çalışanlar və yaxud, ədəbi, milli dili zəif mənimsəmiş, publisistik fərasəti olmayan, bədii fəhmindən (əgər varsa) faydalana bilməyənlərin sırasında xəbər portallarına rəhbərlik edənlər də var. Doğrudanmı XXI əsr çağdaş Azərbaycan mediası bu dərəcədə zəifdir?

Bir az dərinə gedəndə, belə xəbər saytlarının "rekvizitləri" də şübhə doğurur. Əlaqə telefonları, ünvan və redaksiya heyəti barədə məlumat da bəzən olmur vəs. Belə prezumpsiya "Reket" fəaliyyətlərini təsdiqləmiş olur.

Əgər XIX əsrdə ədəbi dilin inkişafı bədii ədəbiyyatın dili ilə assosiasiyalaşmışdısa, (ittifaq,birlik,qruplaşmış) müasir dövrümüzdə ədəbi dilin tam hüquqlu və nüfuzlu nümayəndəsi kimi KİV dili çıxış edir.

Müasir anlamda isə KİV-in dili millətin ümumi dili, kütləvi kommunikasiya dilidir. Kütləvi kommunikasiya vasitələrinin mühüm funksiyası cəmiyyətin əksər hissəsinin ona dəstək verməsi, orada standartların saxlanılması ilə ölçülür. Bu hal Azərbaycan dilinin stilinin qorunmasına imkan verir. KİV-nin dili ədəbi dilin stilistik sistemində həm mərkəzi, həm də orta yer tutur. Kütləvi kommunikasiya dili funksional stilin hamısına yaxındır, xüsusi ədəbi biliyin tapşırıqlarına cavab verir. Lakin bəzən xəbər saytlarında ədəbi və milli dili ehtiva etməyən, azərbaycan dilinin orfoqrafik lüğətində olmayan sözlər cəmiyyətə KİV dili kimi məcburən sırınır, məs: "gözükməyən" (Bax: yenə Demokrtatik az.)

Son zamanlar media portallarında dövlət məmurları haqqında xəbərlər qərəzli başlıqlarla, mətnin məzmunu ilə heç bir əlaqəsi olmayan sərlövhələrlə diqqət çəksin deyə dərc edilir və uzun müddət manşetdən silinmir. Bu,sözün həqiqi mənasında təqibin, hədənin və tələb etmənin XXI əsrə xas media yoludur.

Azərbaycan Mətbuat Şurasına daxil olan belə şikayətlərə mahiyyəti üzrə baxılsa da, tənbeh etmək imkanları məhduddur. Demokratik, hüquqi dövlətin vətəndaşları kimi qanunun və hüququn aliliyini qoruya bilmirik. Allahın xəlq etdiyi belə qələm sahibləri müqəddəs kitabların qələmlə yazılmasını anlamır, qələmə müqəddəs alət kimi yanaşmırlar. Mətbuat Şurasının ictimai nəzarətin həyata keçirilməsi,media mühitinin sağlamlaşdırılması, KİV məmur və vətəndaş KİV arasında olan münasibətlərin tənzimlənməsi üçün yeni normativ hüquqi akta ehtiyac var.

"Reket" jurnalistikaya qarşı hüquqi "həblər"və müqavimət olmazsa, həm ədəbi, həm də milli dilimiz korlanacaq, mədəniyyət(mədəni)lövhəmizdə qara ləkələrin sayı artacaq.Özünə hörmət edən jurnalist, qələm sahibi tarixən yığcam olub. Amma nə etmək, meşələr əyri ağaclarsız olmadığı kimi, xəbər portalları da qüsurlu "yazar"lardan xali deyil.

Qeyd etmək yerinə düşərdi ki,hərəkət və hərəkətsizliyə yol verən KİV nümayəndələri ilə bağlı Azərbaycan Mətbuat Şurasına daxil olan şikayətlər artımla müşahidə edilir. Şikayətlərin mahiyyəti üzrə müzakirəsi zamanı yazının müəllifi və yaxud, sayt rəhbəri bir daha jurnalist nüfuzu ilə bir araya sığmayan hərəkətlərə yol verməyəcəyi barədə söz versə də, bu vədlər qısa vaxt ərzində pozulur. Bu cür hallar, KİV subyektlərinin öz hərəkətlərini ölçüb - biçə bilməməyinin, daha çox şəxsi maraqlara üstünlük verməsinin nəticəsidir.Etiraf edək ki,daha çox şikayətlər internet xəbər portallarının nümayəndələrinin məlumatları ilə bağlı olur.

Dənizdə çalışanlar küləyi heç vaxt arzulamadıqları kimi, "Reket"lər də adətən qınağı xoşlamırlar,məhkəmələrə üz tuturlar və yaxud, istifadələrində olduğu, sahiblik etdikləri səhifələrdə yenə yalan və böhtan yazıların müəlliflərinə çevrilirlər. Ona görə də Mətbuat Şurasının səlahiyyət dairəsini imperativləşdirmək üçün yeni qanunun qəbulu çox vacibdir.

Ümumiyyətlə, KİV dili ədəbiyyatla sıx əlaqədə olduğu üçün ədəbi dilin inkişafında əsas faktor kimi qəbul edilir. Lakin klassik ədəbiyyat üçün o ambivalent rolda çıxış edir.Yəni bir tərəfdən yamsılayır, digər tərəfdən isə özündən itələyir, bu da qəzetin və ya xəbər portalının dilindən asılı olur.

Azərbaycanın ahıl və gənc jurnalistlərinə yalnız həqiqəti yazmaq arzusu ilə...

## "Azercell"in Barama Mərkəzi yeni inkubasiya proqramına başlayır

*İnnovativ ideyalarınızı biznesə çevirmək üçün əla imkan*

**"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi innovativ və maraqlı ideyalarını uğurlu biznesə çevirmək arzusunda olan startaplara növbəti dəfə dəstək olur.**




Belə ki, 10 il fəaliyyətdə olan mərkəz ölkədə sahibkarlıq mühitinin və rəqəmsal ekosistemin inkişafı üçün "Barama İnkubasiya Proqramına" start verir. Proqramın məqsədi gənc startapçılara yardım etmək, müxtəlif dəstək resursları və xidmətlər vasitəsilə onların biznesini sürətləndirməsinə təkan verməkdən ibarətdir. Layihədə uğur qazanan startaplar 6 ay ərzində ödənişsiz ofis dəstəyi, peşəkar konsultasiya xidmətləri, təlim proqramları, biznes şəbəkəsi ilə sıx işgüzar əlaqələr qurmaq imkanı əldə edəcəklər. İnkubasiya proqramında İnformasiya Texnologiyaları, Virtual oyunlar, Media, Səhiyyə texnologiyaları (MedTech), Əşyaların İnterneti (IoT), Maliyyə texnologiyaları (FinTech), Kənd təsərrüfatında innovativ həllər (AgTech), Virtual Reallıq (VR), Artırılmış Reallıq (AR), Süni Zəka (AI), Bulud Hesablamaları və Biznes Həlləri, Sığorta Həlləri (İnsurtech), Səyahət və Turizm ( TravelTech), Proqram təminatı xidmət kimi (SaaS) layihələrə daha çox üstünlük veriləcək.

Barama İnkubasiya Proqramına müraciət etmək üçün <https://gate.barama.az/registration.php>

linkinə daxil olaraq onlayn surətdə müraciət formasını doldurmaq tələb olunur. Müraciətlər 15 mart 2019-cu il tarixinə qədər qəbul ediləcək. Onlayn müraciəti tamamladıqdan sonra təqdim olunan layihə Barama heyəti tərəfindən dəyərləndiriləcək və meyarlara uyğun gələn komandalar seçimin ikinci mərhələsi olaraq biznes planları ilə birgə layihələrini əyani formada təqdim etmək üçün mart ayı ərzində ofisə dəvət olunacaqlar. İkinci seçim mərhələsini də uğurla keçmiş komandaların adları açıqlandıqdan sonra həmin komandalar Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində öz layihələrini reallaşdırmaq şansını əldə edəcəklər.Layihə haqqında daha ətraflı məlumatı www.barama.az <http://www.barama.az> saytından əldə etmək olar.

Mərkəz yarandığı vaxtdan etibarən startaplara dəstək olmuş, Azərbaycanın rəqəmsal ekosisteminin inkişaf etdirilməsi istiqamətində bir sıra böyük tədbirlərə evsahibliyi etmiş, müxtəlif layihələr həyata keçirib. "Azercell" və "PAŞA Bank"ın dəstəyilə Barama hazırda Azərbaycanın əsas startap inkubasiya mərkəzlərindən biridir və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Rəsmi nikah olmadan kəbin kəsən mollalarla belə rəftar olunmalıdır...

**İnzibati Xətalar Məcəlləsində rəsmi nikah sənədi olmadan kəbin kəsən mollalar üçün məsuliyyətin müəyyən edilməsi zərurəti var. "Trend"in məlumatına görə, bunu Ailə, Qadın və Uşaq Komitəsinin sədri Hicran Hüseynova bildirib.**

Onun sözlərinə görə, Azərbaycanda bütün məscidlərdə dini kəbin kəsdirən şəxslərdən Ədliyyə Nazirliyi Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı (VVAQ) şöbələrinin rəsmi nikah sənədi tələb olunur.

H.Hüseynova deyib ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvası ilə rəsmi nikahsız kəbin kəsilməsinə qadağa qoyub: "Lakin bununla yanaşı, biz görürük ki, çoxlu sayda cütlüklərin rəsmi nikahı olmasa da, dini kəbinləri var. Əlbəttə ki, belə ailələrin hüquqlarını müdafiə etmək bir qədər çətinlik yaradır. Xüsusilə də erkən yaşda nikaha girən qızların hüquqlarının müdafiəsi çətin olur. Buna görə də İnzibati Xətalar Məcəlləsində rəsmi nikah sənədi olmadan kəbin kəsən mollalar üçün məsuliyyətin müəyyən edilməsi zərurəti yaranır. Nəzərinizə çatdırım ki, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin ölkəmizlə bağlı tövsiyələrində də bu öz əksini tapıb".

**Kövrək Murad, Səadət Buta, İradə Sarıyeva, Bafəli Adgözəlov, Musa Nəbioğlu, İmdad Sarıyev Adət həkimə atası, Borçalı aşıq mühitinin tanınmış nümayəndələrindən biri, ustad aşıq Əhəd Adgözəlovun vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verirlər.**
**Allah rəhmət eləsin!**

# Polisə məlumat gəldi və narkotik satanlar tutuldu

**Fevralın 14-də həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində ümumi çəkisi 8 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, o cümlədən 1,1 kiloqramdan artıq heroin, 6,7 kiloqramdan çox marixuana, həmçinin 150 ədəd çətənə kolu götürülərək qanunsuz dövriyyədən çıxarılıb.**



Saxlanan şəxslər maddi sübutlarla birgə istintaqa təhvil verilib.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb, zəruri istintaq və əməliyyat-axtarış tədbirləri aparılır.

Xəzər RPİ 1-ci Polis Şöbəsinin əməkdaşları əldə edilmiş məlumat əsasında Binə qəsəbə sakini C.Mecidova məxsus həyətyanı sahədə əməliyyat-axtarış tədbirləri həyata keçirib.

Polis əməkdaşları tərəfindən oradakı istixanadan kultivasiya yolu ilə yetişdirilmiş 150 ədəd çətənə kolu və çəkisi 5,1 kiloqrama yaxın marixuana aşkar edilərək götürülüb.

Fakta bağlı araşdırma aparılır.

Nərimanov RPİ 18-ci Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdiyi əməliyyat tədbiri nəticəsində üzərində qanunsuz olaraq narkotik vasitə daşımaqda şübhəli bilinən əvvəllər də məhkum olunmuşlar - Bakı şəhər sakini C.Seyidbəyov və Masallı rayon sakini M.Salayev saxlanıb.

Polis əməkdaşları C.Seyidbəyovdan 10 qramdan artıq tiryək, M.Salayevdən isə çəkisi 1 kiloqram 50 qram heroin aşkar edərək götürüb.

Neftçala Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat tədbiri nəticəsində üzərində narkotik vasitə daşımaqda şübhəli bilinən Bankə qəsəbə sakini, əvvəllər məhkum olunmuş Y.Səmədov saxlanıb. Şəxsi axtarış zamanı ondan marixuana aşkar edilərək götürülüb.

Polis əməkdaşları tərəfindən saxlanılan şəxsin evində də narkotik vasitə saxlaması müəyyən edilib. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə onun qəsəbə ərazisindəki evindən əlavə olaraq 1,6 kiloqram marixuana da aşkar edilərək götürülüb.

***Xəbər xidməti***

# Maşın, bank soyğunçuları və polisin uğurlu əməliyyatları..., qanunsuz silah...

**Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində 2017-ci ilin yanvarın 19-da Köhnə Kotec qəsəbəsi ərazisindən qəsəbə sakini Z.Əliyevin "VAZ-2106" markalı avtomobilini qaçırmaqda şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər oğurluğa görə məhkum olunmuş M.Zəkiyev avtomobillə birgə saxlanıb.**




Polis əməkdaşları tərəfindən onun digər cinayət əməlinin də üstü açılıb.

M.Zəkiyevin ətrafında aparılmış əməliyyat tədbirləri ilə onun 2015-ci ilin avqust ayında "VAZ-2106" markalı başqa bir avtomobili qaçırdığı, onu hissələrə bölərək satdığı, habelə 2018-ci ilin iyul ayında digər "VAZ-2107" markalı avtomobili qaçırdığı və Göyçay rayon sakininə satdığı müəyyən edilib.

Araşdırma aparılır.

Fevralın 11-də "102- Zəng Mərkəzi" Xidmətinə müraciət edən şəxs 3 gün əvvəl bank hesabından oğurluq edildiyini bildirib.

Müraciətlə əlaqədar dərhal Binəqədi RPİ-nin 4-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən müvafiq araşdırmalar aparılıb və M.Ə.Rəsulzadə qəsəbəsi ərazisindəki bankomatların birindən həmin şəxsin hesabındakı 600 manatın çıxarılaraq oğurlandığı müəyyən edilib.

Keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Abşeron rayon sakini R.Qasımov qısa müddətdə müəyyən edilərək saxlanıb.

Faktla bağlı araşdırma aparılır.

Fevralın 14-də Səbail RPİ-nin 41-ci Polis Bölməsinə Salyan yolu küçəsində yerləşən şirkətlərin birinin həyətindən mühərriklər, yüksək təzyiqə davamlı borular, elektrik avadanlıqları və dəmir ayaqaltıların oğurlanması barədə müraciət daxil olub.

Keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Laçın rayon sakinləri N.Hüseynzadə, H.Nadirov və Bakı şəhər sakini H.Məmmədzadə qısa müddətdə müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanıb.

Faktla bağlı araşdırma aparılır. İsmayıllı Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi tədbirlər nəticəsində rayonun Göytəpə kənd sakini Ədalət Mustafayevdən müvafiq sənədləri olmayan "TOZ 63" markalı, qoşalüləli ov tüfəngi götürülüb.

Qəbələ RPŞ-nin əməkdaşları tərəfindən isə rayonun Nic qəsəbə sakini Jora Muradaridən qanunsuz saxladığı "TOZ" markalı təklülə tüfəng aşkarlanıb.

Faktlarla bağlı araşdırma aparılıb.

***Beki-xeber.com***

### Elan

Əhmədzadə Ceyran Cabir qızına Azərbaycan Dövlət Rəssamlıq Akademiyası tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Mircəlal Mirəli oğluna Xətai Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet və Bakı Maşınqayırma Texniki Kolleci tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycanı istəməyən qüvvələr ölkəmizin imicinə xələl gətirmək üçün müxtəlif üsullardan istifadə edirlər. Son günlər sosial şəbəkələrdə, eləcə də bəzi saytlarda Azərbaycanda "donuz qripi" olması (?) ilə bağlı xəbərlər yayılır. Hətta onlar bir nəfər gənc xanımın "donuz qripi"ndən dünyasını dəyişdiyini iddia edirlər. Guya ki, ölkəmizdə "donuz qripi" var və bununla bağlı xəstəxanalara müraciət edənlər olub.**

baycanı istəməyən, onun inkişafını gözü götürməyən qüvvələrdir. Bu gün Azərbaycana güclü turist axını var. Müsbət haldır ki, ilin bütün fəsillərində ölkəmizə gələn turistlərin sayı çox-

qüvvələrin sosial şəbəkələr və saytlar vasitəsilə yaydıqları bu şayiələrin heç bir əsası olmadığı məlumdur. Bəzi ölkələr var ki, onlar Azərbaycanı gözdən salmaq üçün müxtəlif vasi-

## Qara-qura şayiə yayanların niyyətləri açılır...

# Azərbaycan turizminin sürətli inkişafına qarşı "donuz qripi" təxribatı...

### *Fatimə Hacıbəyli: "Azərbaycanda "donuz qripi" var deyənlər bu şayiəni ona görə yayırlar ki..."*

Səhiyyə Nazirliyi rəsmiləri isə bu iddianın əsassız olduğunu bildiriblər.

"Azərbaycanda "donuz qripi" var" deyənlər kimlərdir və onların məqsədi nədir?

Ekspertlərin bildirdiyinə görə, ölkəmizdə nə "donuz qripi" var, nə də onunla bağlı hər hansı bir təhlükə. Onlar qeyd edirlər ki, bu həqiqətə uyğun olmayan xəbəri Azərbaycanı istəməyən xarici ölkələrdən maliyyələşən bəzi qüvvələr yayır və onların da məqsədi xarici ölkələrdən Azərbaycana gələn turist axınının qarşısını almaqdır.

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın günü-gündən inkişaf etməsi, şəhərlərimizin, bölgələrimizin abadlaşdırılması bəzi xarici qüvvələri ciddi narahat edir.** Onun sözlərinə görə, bu gün reallıq ondan ibarətdir ki, ölkəmiz dünyada həm mədəniyyəti, həm tarixi, həm turizm potensialı baxımından tanınır. O qeyd etdi ki, bu baxımdan, Azərbaycana maraq göstərənlər çoxdur. "Azərbaycanda "donuz qripi"nin yayılması ilə bağlı təhlükə olardısa, ilk olaraq buna qarşı



*"Bu gün Cənubi Qafqazda ən çox turist axınının Azərbaycana olması xaricdə oturub bizi pisləyən bəzi qara qüvvələri ciddi narahat edir"*

mübarizə tədbirləri gücləndirilər və bu barədə əhaliyə xəbərdarlıq edilərdi. Bilirsiniz ki, dövlətimiz insanlarımızın, bütün mənalarda, qayğısına qalır. Bu baxımdan, inanmıram ki, bizdə belə bir təhlükə olsun. Düşünürəm ki, bu məlumatı yayan Azər-

dur. "Azərbaycanda "donuz qripi" var deyənlər bu şayiəni ona görə yayırlar ki, ölkəmizə turist axınının qarşısını alsınlar. Belə yalan xəbərləri dövriyyəyə buraxmaqla, ölkəmizə gələn turistlərin diqqətini başqa ölkələrə yönəltmək məqsədi güdürlər. Qara

tələrə əl atır. Onlardan biri də hazırda dövriyyəyə buraxılan "donuz qripi" şayiəsidir" - deyə bildirən F.Hacıbəyli qeyd etdi ki, il ərzində Azərbaycana dünyanın müxtəlif ölkələrindən minlərlə turist gəlir. O vurğuladı ki, Novruz bayramı ilə əlaqədar, ənənəvi olaraq, ölkəmizə həm Şərq, həm də Avropa ölkələrindən turistlər axın edəcəklər. Bu şayiəni yayanların məqsədi isə ölkəmizə gələn turistlərin yolunu kəsməkdir. "Turistlərin ölkəmizə axını büdcəmizə xeyir verir, eyni zamanda da onlar Azərbaycanı gəzir, tarix-mədəniyyət abidələrimizlə, muzey və teatrlarımızla, təbiətimizlə yaxından tanış olur, öz ölkələrinə getdikdən sonra Azərbaycanın təbliği ilə məşğul olurlar. Bilirsiniz ki, bu gün Cənubi Qafqazda ən çox turist axınının Azərbaycana olması xaricdə oturub bizi pisləyən bəzi qara qüvvələri ciddi narahat edir və onlar da turistlərin səfərinin qarşısını almaq üçün şayiələrə, yalanlara əl atırlar" - deyə müsahibimiz qeyd etdi.

*İradə SARIYEVA*

## "Nar" müştəri məmnuniyyəti üzrə yüksək artım nümayiş etdirib

**Ölkənin ən gənc mobil operatoru olan "Nar"ın müştərilərə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində müştəri məmnuniyyətində sürətli artım müşahidə olunur. Müstəqil araşdırma şirkətləri tərəfindən aparılan bir neçə sorğunun nəticələrinə əsasən, son 1 il ərzində "Nar" müştəri loyallığı indeksi üzrə 45% artım qeydə alınıb.**

Bununla da "Nar" müştəri məmnuniyyəti indeksi üzrə ən yüksək artım nümayiş etdirib. Eyni zamanda, son 1 il ərzində mobil internet məmnuniyyəti göstəricisi üzrə 16% yüksəliş qeydə alınıb. Abunəçilərin fikrinə əsasən, "Nar" mobil internet sahəsində liderdir.

Mobil operatorun təqdim etdiyi tariflər və qiymətlərin sərfəli olması, "Nar"ın yüksək keyfiyyətli 3G və 4G şəbəkəsi, eyni zamanda, mobil internetin keyfiyyəti müştəri loyallığı indeksinin artımına səbəb olub. Qeyd edək ki, ölkədaxili və şəbəkədaxili dəqiqələr, bol internet və çoxsaylı bonusların daxil olduğu "Full" paketləri Azərbaycan mobil rabitə bazarında ən sərfəli paket sayılır. Azərbaycan mobil rabitə bazarında ilk dəfə olaraq "Full" paketlərinin istifadəçiləri dəqiqələri meqabaytlara və ya əksinə, meqabaytları dəqiqələrə dəyişə bilərlər. Paytaxtla yanaşı, ölkənin regionlarına göstərdiyi diqqətilə seçilən "Nar", bölgələrdə ən ucuz mobil rabitə xidmətini təqdim edir. Bundan başqa, nar.az <https://www.nar.az/> internet səhifəsində olan şəxsi kabinetlər, eyni zamanda, "Facebook <https://www.facebook.com/Narofficial/>", "Twitter <https://twitter.com/salam_nar>" və digər sosial şəbəkələr üzərindən abunəçilərə yüksək xidmət göstərir. "Nar"ın abunəçilərə yönəlik bütün yüksək keyfiyyətli xidmətləri müştəri məmnuniyyətini artırıb və abunəçilərinin loyallığını qazanıb.

Xatırladaq ki, 2017-ci ilin 2-ci rübündə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testləri nəticəsində də "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticə göstərib. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

# Boşanmayın, sizi barışdıraq...

**Ailə, Qadın və Uşaq Komitəsinin sədri Hicran Hüseynova boşanmaq istəyən ailələr üçün məhkəmələrdə barışdırıcı mexanizmin tətbiqini təklif edib.**

"Trend"in məlumatına görə, bu təşəbbüsü irəli sürən Ailə, Qadın və Uşaq Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, müasir dövrün aktual problemlərindən hesab edilən ailədaxili münaqişələrin



həlli ailə təsisatının davamlılığı baxımından olduqca vacibdir:

"Əfsuslar olsun ki, bu gün biz münaqişəli ailələrin sayının artdığını müşahidə edirik. Bu da çox zaman boşanma ilə nəticələnir. Aparılan təhlillər göstərir ki, belə ailələrin boşanma səbəbləri bəzən həllediləndir. Lakin barışdırma mexanizminin olmaması və tərəflərin bir çox hallarda bir-birinə barışmaz mövqedə dayanması problemi daha da dərinləşdirir. Buna görə də məhkəmələrdə barışdırıcı mexanizmin tətbiq olunmasına ehtiyac var. Bu da "Mediasiya haqqında" qanunun qəbul edilməsini zəruri edir".

Komitə sədri qeyd edib ki, mediasiya mülki, əmək və ailə hüquq münasibətlərindən yaranan mübahisələrin tənzimlənməsi məqsədilə tətbiq olunur. Bu qanun mübahisələrin həllinin alternativ üsuludur.

H.Hüseynova əlavə edib ki, komitə bununla bağlı bir sıra müsbət təcrübələri, əsasən də alman təcrübəsini araşdırıb:

**"Hazırda Komitənin mərkəzlərində pilot layihə keçirilir və çox müsbət nəticələr əldə olunub. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində ölkəyə ekspertlərin dəvət olunması və yerli mütəxəssislərin hazırlanması ilə bağlı təklif edilib. Düşünürük ki, təklif reallaşarsa, yerli səviyyədə mediatorların hazırlanması və bu xidmətin ölkə üzrə göstərilməsinə nail olacağıq".**

№ 32 (3930) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16-18 FEVRAL 2019-cu il

www.baki-xeber.com



## Altay dağlarında qədim qayaüstü rəsmlərin sirri...

Altay vilayətinin Kalbak-Taş rayonu təbiət gözəlliyi ilə yanaşı 5 minə yaxın qayaüstü rəsmi ilə də məşhurdur. "Ölkə.az" bildirir ki, bu qayaüstü rəsmlər arasında müəyyən sakral məlumatları da özündə saxlayan işarələr var. Qayaüstü rəsmlərdə pələng, maral, keçi və digər vəhşi heyvanların, onların ov mərasimi təsvir edilib. Bu rəsmlər mağara insanının həyatı, geyimi, yaradıcılığı haqqında, onların inam və etiqadı barədə məlumat verir. Amma onlar arasında elə rəsmlər var ki, hansısa uçan aparat və qumanoidlər təsvir edilib. Bu qumanoidlər elə də insana bənzəmir. Ortodoksal elm bu faktı belə izah edir: Rəsmlərdə tanrılar təsvir edilib. Belə bir izah isə yeni suallar ortaya çıxarır. İnsan bütün tarix boyu ali qüvvələrə sitayiş edib, inanıb. Belə çıxır ki, Altay sakinləri uçan boşqabları və yadplanetliləri görüblər və onları Tanrı qəbul edərək daşın üzərinə bunu qeyd ediblər. Amma müasir elm bu faktı qəbul etmir. Bununla belə, müstəqil tədqiqatçıların fikrinə əsasən, yadplanetlilər və tanrılar eyni məhfumdur. Məsələn, bütün xalqların inancına əsasən, tanrılar səmadan uçub gəlir. Bəzi xoşagəlməz məxluqlar isə yerin altından çıxır. Niyə bunun tərsini düşünən və yazan xalq olmayıb? Əgər ali qüvvələri təxəyyül məhsulu hesab etsək, niyə onlar yerin altından çıxmır və hər zaman səmadan enir? Məhz Altay petroqliflərini tədqiq edən müstəqil tədqiqatçılar da bu düşüncəyə gəlirlər. Amma təəssüf ki, akademik elm bunu ciddi qəbul etmir.

## Qulaqlıqla musiqi dinləmək nəticəsində 1 milyarddan çox adam eşitmə qabiliyyətini itirə bilər

**Planetimizdə 12-35 yaş arasında 1 milyarddan çox insan smartfonlar və pleyerlərdən qulaqlıqla gursəsli musiqi dinləmək nəticəsində eşitmə qabiliyyətini itirə bilər.**



"AZƏRTAC" Dünya Səhiyyə Təşkilatının (DST) saytına istinadla xəbər verir ki, bunu martın 3-də qeyd olunan Beynəlxalq Eşitmə Qabiliyyətinin Qorunması Günü ərəfəsində DST və Beynəlxalq Elektrik Rabitəsi İttifaqının hazırladığı tövsiyə xarakterli hesabatın müəllifləri bildiriblər. DST-nin baş eksperti Şelli Çadxa deyib: "Təsəvvür edin ki, siz spidometri və sürət məhdudiyyəti olmayan maşında şütüyürsünüz. Biz təklif edirik ki, smartfonlar da bu cür "spidometrlə" təchiz olunsun. Bununla səsin səviyyəsini müəyyən etmək və limitin aşılmasını elan etmək mümkün olsun". Tövsiyələrdə təklif olunur ki, smartfonlarda və rəqəmsal audiopleyerlərdə yerləşdiriləcək sistem səs yazılarının dinlənilməsi müddətini və səsin gurluğunu müəyyən edə bilsin. Bununla da, limitin aşıldığı zaman valideynlər uşaqlarına nəzarət edə biləcəklər. Həmçinin gurultu təhlükəli həddə çatdıqda dinləyici xəbərdar ediləcək. DST-nin rəhbəri doktor Tedrosun sözlərinə görə, eşitmə qabiliyyətinin itirilməsinin qarşısını almaq üçün çoxlu vasitənin olduğu bir şəraitdə insanların musiqi dinləyərək kar olmasını əngəlləmək mümkündür. "İnsanlar başa düşməlidir ki, itirilən eşitmə qabiliyyətini bərpa etmək mümkün deyil. Bizim yeni tövsiyələrimiz gənclərə musiqidən zövq almaqla yanaşı, sağlamlığını da qorumağa kömək edəcək", -deyə təşkilatın başçısı vurğulayıb. DST-nin məlumatına görə, planetimizin sakinlərinin 5 faizindən çoxunun - 466 milyon nəfərin eşitmə qabiliyyəti ilə bağlı ciddi problemləri mövcuddur. Onların əksəriyyəti orta və aşağı gəlir səviyyəsi olan ölkələrdə yaşayan yaşlı insanlardır. 2050-ci ildə isə hər on nəfərdən biri bu problemlə üzləşəcək.

## Yəhudi alimdən möhtəşəm icad...

**Biz hər ay istifadə etdiyimiz enerji müqabilində pul ödəyirik. Bəzi insanlar isə daha ucuz enerji mənbələri axtarışına çıxır.**



Bəs bilirdiniz ki, sadəcə bir kartofun köməyi ilə bir otağı işıqlandırmaq olar? Əgər işığı düzgün hazırlasanız, bu, sizə bir ay kifayət edəcək. "Milli.Az" xəbər verir ki, Yerusəlim universitetinin alimi Xaim Rabinoviç yeni işıq əldə etmək üsulunu icad edib və o, bu icadını bütün dünya ilə bölüşmək qərarına gəlib. Kimin ağlına gələrdi ki, bir neçə kartofdan işıq qurğusu düzəltmək olar. Bu, çox asan səslənsə də, sizi bir aylıq işıqla təmin edən qurğunu düzəltmək üçün əlavə bir neçə ləvazimat lazım olacaq. Xaim bu sahədə ən yaxşı alimlərdən biridir. O deyir ki, qurğunu hazırlamazdan əvvəl 8 dəqiqə qaynatmaq lazımdır. Çiy məhsul eyni göstəricisi ilə müqayisə etsək, yanma zamanı kartofun enerji potensialı artır. Qaynamış kartofun enerji ehtiyatı AA batareyasından 2 dəfə çox artacaq. Bunun üçün 2 kartof və 2 metal, 2 elektrod və elektrik dövrəsinin dəsti üçün kiçik alışqan lazımdır. Başqa bir şeyə ehtiyacınız olmayacaq! Xaimin fikrincə bu, inkişaf etməkdə olan ölkələrdə yaşayan insanlar üçün böyük kəşf ola bilər: "Əminəm ki, bu, milyonlarla insanların həyatını yaxşılaşdıracaq. Kartof dünyada ən ucuz məhsullardan biridir, bunu etmək daha asan və ucuz başa gəlir. Bu gün bir çoxu elektriki təbii haqqı qəbul edir, amma inkişaf etməkdə olan ölkələrdə yaşayan insanların bu cür imkanları yoxdur, odur ki, bu, əla alternativ ola bilər". Alim onu da deyib ki, "kartof" batareya istehsalı 50 dəfə ucuz başa gələcək.





**Qoç** - Emosional fon əlverişli deyil. Ən kiçik və xırda məsələyə görə əhvalınızı pozmayın. Ünsiyyətdə o qədər də xoş olmayan insanlarla təmaslar qaçılmazdır. Onlarla əsl münasibətinizi müvəqqəti də olsa, pərdələməyə çalışın.



**Buğa** - Münaqişəli, gərgin gündür. Yaranan problemlərə əhəmiyyət verməməyə çalışsanız da, alınmır. Əks təqdirdə, fırıldaq və ya intriqa qurbanına çevrilərək əhəmiyyətli məbləğdə pul itirə bilərsiniz.



**Əkizlər** - Əsas diqqəti məişət qayğıları və şəxsi işlərin çözülməsinə yönəldin. Peşəkar fəaliyyət müstəvisində ciddi irəliləyişə bel bağlamağa dəyməz. İşiniz kommersiya ilə bağlıdırsa, ehtiyatlı olun.



**Xərçəng** - Yaşam potensialı səviyyəsi yüksəkdir. Eyni vaxtda bir neçə işlə məşğul olsanız da, çox yorulmayacaqsınız. Qeyri-standart düşünün, orijinal qərarlar qəbul edin. Belədə bir sıra problemləri sürətlə həll edə biləcəksiniz.



**Şir** - Kiçik problemlərə rəğmən uğurlu gündür. Müsbət təmayüllərin təsiri güclü olduğundan ciddi pərişanlığa səbəb yoxdur. İndiyədək öhdəsindən gələ bilmədiyiniz problemləri bu gün tezliklə həll etmək imkanlarınız var.



**Qız** - Bütün problemləri ani həll etmək iqtidarında olduğunuzu düşünərək yanılmayın. Əslində, hər şey göründüyü kimi olmadığından tələsik, düşünülməmiş qərar qəbul etməyin. Dəvət aldığınız bütün tədbirlərə qatılmayın.



**Tərəzi** - Günün ilk yarısı məhsuldar fəaliyyət üçün əlverişli gündür. Çətinliklər sizi qorxutmasın. Mürəkkəb, müşkül məsələnin həlli üzərində baş sındıra bilərsiniz. İşdə həmkarlar və rəhbərliklə fikir ayrılıqları yarana bilər.



**Əqrəb** - Emosional fon çox qeyri-stabildir. Bu isə durumu çətinləşdirir. Yalnız öz maraqlarınızı düşünməyin, təşəxxüslü və eqoist davranmayın. Vədlər və öhdəliklərinizi unutmayın.



**Oxatan** - Eksperimentlər aparın. Qəfil, gözlənilməz, cəsur ideyalar yaranır. Çətin olsa da, onların bəzilərini reallaşdırmağa çalışın. İndiyədək yalnız peşəkar fəaliyyət müstəvisində təmaslarınız olduğu insanla dostlaşa bilərsiniz.



**Oğlaq** - Ciddi və mühüm işə başlaya bilərsiniz. İntellektual potensial səviyyəniz yüksəkdir. Ətrafınızdakı insanları fikir və planlarınızın dərinliyi, məntiqi ilə heyrətləndirə bilərsiniz.



**Dolça** - İmkanlar və şanslardan yararlanmağa çalışın. Adi günlərlə müqayisədə daha ətalətli və süst olmayın. Belə davranış əhvalınızı pozacaq, sizi dözülməz və qıcıqlı edəcək. Maliyyə vəsaiti ilə maksimal dərəcədə ehtiyatlı davranın.



**Balıqlar** - Dostlar, həmfikirlər və müttəfiqlərlə ünsiyyətdə yeni fəaliyyət planı hazırlaya bilərsiniz. Problemlərinizin bir qismini çözmək üçün nüfuzlu şəxsdən kömək istəməkdən utanmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Özbəkistanda dinazavra bənzəyən heyvan skeleti tapılıb

**Özbəkistanın Fərqanə vilayətinin sakini evini təmir etdirərkən zirzəminin altından dinazavra bənzəyən heyvan skeleti tapıb.**



"AZƏRTAC" xəbər verir ki, bu barədə Daşkənddə rus dilində çap olunan "Narodnoe slovo" qəzeti məlumat yayıb. Bildirilir ki, tapılan sümüklər göstərir ki, bu heyvanın güclü uzun ayaqları, iri başı, elastik onurğa sütunu, quyruğu və quş boğazına bənzər boynu olub. Skeletin tapıldığı ev Fərqanədəki çöllüklər abadlaşdırıldığı vaxt - 1969-cu ildə tikilib. Ev tikilən zaman lazimi tikinti qaydalarına əməl edilməyib və skelet o zaman tapılmayıb. Qeyd edilir ki, faktın təsdiqlənməsi üçün ekspertlərin köməyinə ehtiyac var. Ancaq arxeoloqlar bunun elmi izahını verməlidirlər.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 5200

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.